# BP Azərbaycanda
# Davamlı inkişaf haqqında hesabat 2015

bp.com/xezer/hesabat








# Hesabatımız haqqında

Bu hesabat 31 dekabr 2015-də bitən təqvim ilini əhatə edir. Bəzi hallarda 2016-cı ildə baş vermiş mühüm hadisələr də hesabata daxil edilib.

Başqa cür göstərilməyibsə, mətndə "BP p.l.c." və onun törəmə şirkətləri və filiallarının əməliyyatları və fəaliyyətləri arasında fərq qoyulmur. Xüsusi olaraq göstərilən hallar istisna olmaqla, bu hesabatda "bizə", "biz" və "bizim" sözlərinə edilən istinadlar Azərbaycanda BP şirkətinə edilən istinadlardır. Əgər hesabatda "BP Azərbaycanda" deyilərək istinad edilirsə, bu o deməkdir ki, yalnız Azərbaycanda olan əməliyyatlarımıza istinad edilir. Əgər biz "BP AGT"yə istinad ediriksə, onda bizim Azərbaycan, Gürcüstan və Türkiyədəki fəaliyyətlərimizə istinad edirik. "BP" və "BP qrupu"na edilən konkret istinadlar "BP p.l.c.", onun törəmə şirkətləri və filialları deməkdir.

Dollarla ifadə edilən bütün məbləğlər ABŞ dollarını nəzərdə tutur və digər pul vahidlərindən çevrilibsə, bu məbləğin ayrılması anına olan məzənnəni əks etdirir. Qaz həcmləri standart kubmetr və ya standart kubfutla verilir.

Bu hesabat hər il Azəri-Çıraq-Dərinsulu Günəşli yatağı üçün birgə əməliyyat şirkətinin əməliyyatçısı və idarəedicisi, həmçinin Ze Bakı-Tbilisi-Ceyhan Payplayn Kompani ("The Baku-Tbilisi-Ceyhan Pipeline Company") şirkətinin idarəedicisi qismində çıxış edən BP Eksploreyşn (Kaspian Si) Limited ("BP Exploration (Caspian Sea) Limited") ilə Şahdəniz yatağının əməliyyatçısı və Sauz Kokazus Payplayn Kompani ("South Caucasus Pipeline Company") şirkətinin texniki operatoru qismində çıxış edən BP Eksploreyşn (Şahdəniz) Limited ("BP Exploration (Shah Deniz) Limited") tərəfindən nəşr edilir. Bu şirkətlərin hər biri bu hesabatın məqsədlərinə uyğun olaraq öz layihələri üzrə müvafiq məlumatları vermişdir.

## Xəbərdaredici bildiriş

BP-nin Azərbaycanda davamlı inkişaf haqqında 2015-ci il üçün hesabatında öncədən söylənmiş, məsələn, çıxarıla bilən həcmlər və ehtiyatlara, əsaslı, əməliyyat xərcləri və digər xərclərə, həmçinin gələcək layihələrə aid müəyyən bəyanatlar ola bilər. Bir sıra amillərdən, o cümlədən tələb və təklifin dəyişməsindən, qiymət və işlərin gedişi məsələlərindən, həmçinin siyasi, hüquqi, maliyyə, kommersiya və sosial şəraitdən asılı olaraq faktiki nəticələr belə bəyanatlardakı göstəricilərdən fərqlənə bilər.




**Üz qabığındakı şəkil**
Şahdəniz Mərhələ 2 layihəsi üst modulların tikintisi üzrə menecer Rəhman Rəhmanov körpü ilə birləşən iki platformanın üst modullarının inşa olunduğu Amek-Tekfen-Azfen tikinti sahəsində həmkarı ilə söhbət edir.

# Hesabatın içindəkilər

*"BP Azərbaycanda. Davamlı inkişaf haqqında hesabat 2015"* bizim 2015-ci təqvim ili ərzində nail olduğumuz istehsalat göstəricilərini, ətraf mühitin mühafizəsi ilə bağlı gördüyümüz işləri və Azərbaycandakı fəaliyyətlərimizin digər sahələrini əhatə edir. Bu hesabat bizim davamlı inkişaf haqqında 13-cü hesabatımızdır və əvvəlki hesabatlar barədə aldığımız rəyləri özündə əks etdirir.

## Ümumi baxış


2 Giriş sözü
Regional prezident 2015-ci ildə həyata keçirdiyimiz müxtəlif fəaliyyətlərin əsas məqamları barədə düşüncələrini və gələcək planlarımızı bölüşür.

4 BP Azərbaycanda – ilk baxışda
Təşkilati strukturumuz ilk baxışda, 2015-ci ildə əsas nailiyyət və çətinliklərimizin xülasəsi.


## Əsas istiqamətlər


6 Əməliyyatlarımız
Xəzər regionunda davamlı fəaliyyətimizi saxlamaqla dünya səviyyəli əməliyyat və layihələri həyata keçirmək barədə öhdəliyimizə sadiqik.

13 Əməkdaşlarımız
Bizim Azərbaycandakı uzunmüddətli uğurumuz əməkdaşlarımızın səriştəsi, peşəkarlığı, təcrübəsi və əzmkarlığından asılıdır.

19 Əməyin təhlükəsizliyi
Diqqəti təhlükəsiz, etibarlı və qaydalara uyğun əməliyyatlara yönəldir, gördüyümüz hər işdə əməyin təhlükəsizliyi və əməliyyat risklərinin idarə edilməsini əsas götürürük.

23 Ətraf mühit
Biz başa düşürük ki, ətraf mühitə təsirlərin idarə olunması neft və qazın məsuliyyətli şəkildə hasil olunması prosesinin mühüm bir hissəsidir.

27 Cəmiyyət
Biz istəyirik ki, cəmiyyətə təsirimiz maraqlı tərəflərlə açıq dialoqun dəstək verdiyi, sahibkarlığın və icmaların davamlı inkişafına yol açan, müsbət təsir olsun.

34 Beşillik icra göstəriciləri
Hasilat, əməyin təhlükəsizliyi, ətraf mühit və sosial xərcləri əhatə edən əsas icra göstəricilərimiz.












BP-nin Azərbaycanda həyata keçirdiyi davamlı inkişaf fəaliyyətlərinə dair məlumat, açıqlama və bəyanatların faktlara və izahlara əsaslandığı barədə BP rəhbərliyində əminlik yaratmaq məqsədi ilə biz *BP-nin Azərbaycanda 2015-ci* il üçün hazırladığı davamlı inkişaf haqqında hesabatı yoxlamışıq. Gördüyümüz işlərin əhatə dairəsi və gəldiyimiz nəticələrlə səhifə 35-də tanış olmaq olar.

"Ernst & Young" şirkəti Yoxlama prosesinə giriş sözü

# Regional prezidentimizin giriş sözü



> “Məqsədimiz işgüzar fəaliyyətimizi çətin dövrlərdə dayanıqlı və öz tərəfdaşlarımıza, o cümlədən geniş ictimaiyyətə mənfəət gətirməyə davam edən səviyyədə saxlamaqdır.”
>
> **Qordon Birrell**

Hər il nəşr olunan “BP Azərbaycanda. Davamlı inkişaf haqqında hesabat”ı təqdim etməkdən böyük məmnunluq duyuram. 13-cü ildir ki, ölkədə gördüyümüz işlərə dair geniş ictimaiyyətə məlumat vermək barədə üzərimizə götürdüyümüz uzunmüddətli öhdəliyin bir hissəsi kimi bu hesabatı hazırlayırıq.

2015-ci ildə BP Azərbaycanda ölkənin və regionun iqtisadi inkişafına mühüm töhfələr verən nəhəng neft və qaz layihələrini təhlükəsiz və etibarlı şəkildə idarə etməyə davam etdi. Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük neft yatağı olan Azəri-Çıraq-Günəşli (AÇG) yatağının hasilatı gündəlik orta hesabla 634 min barel məhsuldarlıqla davam etdi.

Azərbaycan hökuməti, SOCAR və digər tərəfdaşlarımızla sıx işləyərək AÇG-də hasilatı maksimuma çatdırmaq məqsədilə diqqətimizi hasilat göstəriciləri üzərində cəmləşdirməyə davam etdik. Biz inanırıq ki, yeni texnologiyalara və qurğulara gələcəkdə də davamlı surətdə iri sərmayələrin qoyulması ilə AÇG uzun illər boyunca dünya səviyyəli yataq kimi öz hasilatını davam etdirə bilər.

2015-ci ildə Şahdəniz Mərhələ 1 layihəsi çərçivəsində hasilat sabit yüksək səviyyədə saxlanmaqla 9,9 milyard standart kubmetr qaz və təxminən 18,3 milyon barel kondensat hasil edildi. Texniki təcrübəmiz və obyektlərə göstərdiyimiz cari texniki xidmət Şahdəniz yatağına imkan verdi ki, regionu arasıkəsilməz şəkildə təhlükəsiz və etibarlı qaz ilə təchiz etsin və 2015-ci ildə, demək olar ki, sistemin 100% etibarlılığına nail olduq.

Xəzər regionunda təhlükəsiz və etibarlı operator kimi fəaliyyət göstərərək bu hövzədəki irimiqyaslı mürəkkəb layihələrin həyata keçirilməsində nadir təcrübə və səriştə əldə etmişik. 2015-ci ildə Şahdəniz Mərhələ 2 və Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihələri üzrə yaxşı irəliləyişə nail olduq. İlin sonuna qədər bütün əsas müqavilələr üzrə tikinti işlərinə ümumilikdə təxminən 20000 nəfər cəlb olundu ki, onların 80%-dən çoxu Azərbaycan vətəndaşlarıdır. Layihənin 66%-dən çoxu tamamlanıb və işlər plan üzrə irəliləyir.

Gördüyümüz bütün işlərdə əməyin təhlükəsizliyi ən yüksək prioritetimiz olaraq qalır və 2015-ci ildə də əməyin təhlükəsizliyi üzrə yaxşı icra göstəricilərimizi davam etdirdik. İl ərzində qeydə alınan xəsarət tezliyi sənayedəki standartlardan aşağı olmaqla azaldı. Yol-nəqliyyat qəzalarının səviyyəsini 42%-dək azaltmağa nail olduq. Bununla belə, il ərzində sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ya ətraf mühit ilə bağlı qəza və təhlükəli hallar kimi bir neçə yüksək potensiallı hadisə qeydə alındı. Biz bu hadisələrdən nəticə çıxardıq və əməyin təhlükəsizliyini diqqət mərkəzində saxlamaq öhdəliyimizə sadiqik.

Azərbaycan neft-qaz yataqlarının işlənməsi və nəqli üzrə mühüm layihələrinin operatorluğunu bizə etibar edib və layiqli korporativ vətəndaş olmaq bu fəaliyyətin mühüm bir tərkib hissəsidir. Biz çalışırıq ki, işlədiyimiz yerlərdəki ictimaiyyətə və icmalara maddi və davamlı mənfəətlər gətirək. Gəlir yaratmaqla yanaşı, bu mənfəətlər iş yerlərinin açılmasını və səriştələrin aşılanmasını, yerli sahibkarlıq üçün imkanlar yaradılmasını və yerli inkişaf təşəbbüslərinə dəstək göstərilməsini əhatə edir.

Azərbaycandakı tərəfdaşlarımızla birlikdə sahibkarlığın inkişafı və təlim proqramlarımız vasitəsilə, eləcə də layihələrimizdə işləyən yerli işçi qüvvəsini artırmaqla yerli bazarın inkişafını dəstəkləmək öhdəliyimizə sadiqik. 2015-ci ildə 131 yerli şirkətlə dəyəri 1 milyard dollardan artıq olan yeni uzunmüddətli müqavilələr imzaladıq.

BP-nin idarə etdiyi layihələrə cəlb olunmuş yerli işçilərin inkişafı üçün uzunmüddətli öhdəliyimizə dəstək olaraq Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə əməkdaşlığımızı davam etdirdik. 2015-ci ilin sonunda Azərbaycanda BP şirkətində işləyən orta səviyyəli menecerlərin 88%-i Azərbaycan vətəndaşları idi. Yüksək vəzifəli yerli əməkdaşların sayı 275-ə çatdı ki, bu da əvvəlki illə müqayisədə 20% artıqdır.

2015-ci ildə Bakıda keçirilmiş Avropa Oyunlarının rəsmi tərəfdaşı kimi Bakı 2015-də uğur qazanmaq üçün ölkədəki coşquya və həyəcan dolu anlara ortaq olduq. BP-nin xüsusi nümayəndələri kimi seçilmiş altı Azərbaycan idmançısına sponsorluq etdik; mötəbər tədbirlərin səmərəli şəkildə keçirilməsinə hazırlıq məqsədilə Azərbaycanda və Avropada təhsil almış gənclərin yetişdirilməsi üçün Oyunlar Akademiyasına eksklüziv sponsorluq etdik; eləcə də elit idmançıların yetişdirilməsi və Azərbaycan idmançıları üçün təlim proqramına dəstək olduq.

Nailiyyətlərimiz, əldə etdiyimiz müsbət nəticələr və öhdəsindən gəldiyimiz çətinliklərlə yanaşı, bizim məqsədimiz işgüzar fəaliyyətimizi çətin dövrlərdə dayanıqlı və öz tərəfdaşlarımıza, o cümlədən geniş ictimaiyyətə mənfəət gətirməyə davam edən səviyyədə saxlamaqdır.

Ümid edirəm ki, bu hesabat sizin üçün maraqlı və faydalı olacaq. Həmişə olduğu kimi, bu hesabat da maraqlı tərəflərdən gələn rəylər əsasında formalaşır. Beləliklə, sizin rəy və təkliflərinizi gözləyirik.



**Qordon Birrell**
BP-nin Azərbaycan,
Gürcüstan və Türkiyə üzrə regional prezidenti
13 iyun 2016-cı il

# Nailiyyətlər və çətinliklər

Bu bölümdə BP-nin 2015-ci ildə Azərbaycanda əldə etdiyi mühüm nailiyyətlərin və qarşılaşdığı çətinliklərin xülasəsini veririk.

## 2015

### 13 fevral
Mərkəzi Azəri platforması hasilata başlanmasının 10 illiyini qeyd etdi.

### 14 aprel
Azərbaycanın Milli Məclisi (Parlament) Abşeron Yarımadasının Dayazsulu Hissəsi üzrə Hasilatın Pay Bölgüsü Sazişini ratifikasiya etdi.

### 25 may
Bakı-Tbilisi-Ceyhan boru kəmərinin fəaliyyətə başlamasının və kəmərə ilk neft həcminin doldurulmasının 10 illiyi qeyd olundu.

### 29 iyun
Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsi çərçivəsində kəmər xəttinin tikintisinə başlandı.

### 3 sentyabr
Ceyhan terminalında Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəql edilmiş neftin yükləndiyi 3000-ci tanker yola salındı.

Biz Bakıdakı ilk ofisimizi 1992-ci ildə açdıq, iki il sonra isə BP Azərbaycan hökuməti ilə tarixi "Əsrin müqaviləsi"ni imzaladı.

Xəzərdəki tarixçəmiz barədə oxuyun: *bp.com/xezer/tarix*



Ceyhan Dəniz terminalının yanalma körpüsündən tankerin doldurulması prosesi.

## Nailiyyətlər

**Əməliyyatlar və biznesin inkişafı**
2015-ci ildə Şahdəniz Mərhələ 2 layihəsi üzrə böyük irəliləyişlərə nail olundu və bir çox əsas işlər vaxtından əvvəl tamamlandı.
Səhifə 10-a baxın.

Qərbi Azəri, Çıraq və Şahdəniz platformalarında dövri texniki xidmət işlərini uğurla başa çatdırdıq.
Səhifə 12-yə baxın.

AYDH müqavilə sahəsində 2 ölçülü seysmik araşdırmalar 2015-ci ilin dekabrında təhlükəsiz şəkildə tamamlandı.
Səhifə 12-yə baxın.

**Əməkdaşlarımız**
Azərbaycanda BP-nin yüksək vəzifələrdə işləyən yerli əməkdaşlarının sayı il ərzində 20% artaraq 275-ə çatdı.
Səhifə 14-ə baxın.

**Əməyin təhlükəsizliyi**
Qeydiyyata alınan xəsarətlərin tezliyi 2014-cü illə müqayisədə 11%, yol-nəqliyyat qəzalarının ümumi səviyyəsi isə 42% aşağı düşdü.
Səhifə 20-yə baxın.

**Ətraf mühit**
Obyektlərimizdə qazın məşəldə yandırılmasında əsaslı azalmaya nail olduq. Bu göstərici 2%-ə endi.
Səhifə 24-ə baxın.

Əməliyyatlarımız nəticəsində yaranan təhlükəli tullantıların həcminin dörd dəfə azalmasına nail olduq.
Səhifə 25-ə baxın.

**Sahibkarlığın inkişafı**
2015-ci ildə Azərbaycanda tərəfdaşlarımızla birlikdə 131 yerli şirkətlə dəyəri təxminən 1,09 milyard dollar olan yeni uzunmüddətli müqavilələr imzaladıq.
Səhifə 29-a baxın.

## Çətinliklər

**Əməyin təhlükəsizliyi**
2015-ci ildə səkkiz yüksək potensiallı hadisə qeydə alındı.
Səhifə 20-yə baxın.

# BP Azərbaycanda – ilk baxışda

## Strukturumuz, təşkilatımız, obyektlərimiz və tariximiz

Azərbaycanın karbohidrogen ehtiyatlarının Gürcüstan və Türkiyə vasitəsilə dünya bazarlarına nəql edilməsi ilə Xəzər regionu dünyada neft və qaz hasil edən mühüm ərazilərdən birinə çevrilib.

**BP Azərbaycan, Gürcüstan və Türkiyədə**
Azərbaycanda BP şirkəti Azərbaycan hökuməti ilə bağlanmış bir neçə hasilatın pay bölgüsü sazişi və tranzit əraziyə malik ölkə hökuməti sazişi (TƏMÖHS) əsasında fəaliyyət göstərir. Gürcüstan və Türkiyədə isə ixrac boru kəmərlərini və terminalları əhatə edən TƏMÖHS-lər çərçivəsində fəaliyyət göstərir.

**Hüquqi struktur**
Azərbaycanda BP-yə aid bir sıra hüquqi şəxslərin nümayəndəlikləri fəaliyyət göstərir və bu da BP-nin 1992-ci ildə Bakıda ilk ofisini açmasından etibarən ölkədə və regionda keçdiyi inkişafı əks etdirir. Əsas hüquqi şəxs BP Eksploreyşn (Kaspian Si) Limited ("BP Exploration (Caspian Sea) Limited") şirkətidir.

**Biznes strukturu**
2015-ci ilin sonuna Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional rəhbər qrupu regional prezidentə tabe olan 16 vitse-prezidentdən, təchizat və tədarük məsələləri üzrə baş məsul şəxsdən, baş hüquq müşavirinin köməkçisindən, planlaşdırma və kommersiya əməliyyatları şöbəsinin rəhbərindən, eləcə də nəzarət və maliyyə əməliyyatları şöbəsinin rəhbərindən ibarət idi.

**Hüquqi ünvan**
BP Eksploreyşn (Kaspian Si) Limited şirkətinin Azərbaycandakı ofisinin qeydiyyatdan keçirilmiş ünvanı: Neftçilər prospekti 153, Nəsimi rayonu, Bakı şəhəri, AZ1010, Azərbaycan. Telefon: +994 (0)12 497 599 3000. Faks: +994 (0)12 599 3665.

**Əməkdaşlar**
2015-ci ilin sonunda Azərbaycanda BP tərəfindən daimi işə götürülmüş əməkdaşların sayı 3150 nəfər idi ki, bunların 2735-i Azərbaycan vətəndaşları idi.

**Cənubi Qafqaz Boru Kəməri (CQBK)**
Səngəçal terminalından Gürcüstan-Türkiyə sərhədinə qədər uzunluğu 691km olan qaz boru kəməri
Ötürücülük qabiliyyəti: gündə **19,8 milyon** kubmetr
2015-ci ildə orta ötürmə gücü gündə təxminən **18,6 milyon** kubmetr olub




**Ceyhan terminalı**
2006-2015-ci illər ərzində ümumilikdə **3112 tanker** yüklənib
2015-ci ildə **361 tanker** yüklənib

**Dayazsulu Abseron**
Perspektiv struktur
2015-ci ildə Parlament SOCAR ilə imzalanan Hasilatın Pay Bölgüsü Sazişini ratifikasiya etdi
2015-ci ilin dekabrında müqavilə sahəsində **2 ölçülü seysmik** tədqiqatlar təhlükəsiz şəkildə tamamlandı

**Şəfəq-Asiman**
Geoloji kəşfiyyat sahəsi
2015-ci ildə **3 ölçülü seysmik** məlumatların interpretasiyası başa çatdırıldı

**$58,4 milyard**
dollar 1995-ci ildə əməliyyatların başlamasından bəri AÇG, BTC, Şahdəniz və CQBK layihələri üçün çəkilmiş əsaslı xərclərdir.

**$70,2 milyon**
dollar Azərbaycanda əməliyyatlarımıza başladıqdan etibarən icma inkisafı və təhsil təşəbbüsləri də daxil olmaqla tərəfdaslarımızla birlikdə sosial proqramların həyata keçirilməsinə çəkdiyimiz xərcdir.

**Qərb İxrac Boru Kəməri (QİBK)**
Səngəçal terminalını Gürcüstanın Qara dəniz sahilindəki Supsa limanı ilə birləşdirən 829 km uzunluğunda boru kəməri
Ötürücülük qabiliyyəti: gündə **106 min** barel
2015-ci ildə **31,4 milyon** barel neft nəql edilib

**Bakı-Tbilisi-Ceyhan boru kəməri (BTC)**
Səngəçal terminalını Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan dəniz terminalı ilə birləşdirən 1768km uzunluğunda boru kəməri
Ötürücülük qabiliyyəti: gündə **1,2 milyon** barel
2015-ci ildə **262,8 milyon** barel xam neft nəql edilib

**Səngəçal terminalı**
Bakı şəhərinin cənubunda yerləşən kompleks neft və qaz emalı terminalı
Texnoloji emal gücü: gün ərzində **1,2 milyon** barel neft və **49,3 milyon** kubmetr qaz
İşlək tutumu: **3,2 milyon** barel

**Şahdəniz**
Qaz hasilatı və işlənməsi
**1** hasilat platforması
2015-ci ildə təxminən **9,9 milyard** kubmetr qaz hasil edilib




**Azərbaycanda yerli xərclərimiz**
2015-ci ildə yerli təchizatçılar ilə yalnız ölkədaxili sırf əməliyyat xərclərimiz **1,54 milyard** dollar olub

**Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG)**
Neft hasilatı və işlənməsi
**6** hasilat platforması
2015-ci ildə **231 milyon** bareldən artıq neft hasil edilib

Azərbaycanda BTC və CQBK boru kəmərləri 13 rayondan keçir:
Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz, Ağstafa.

**2,8 milyard**
barel neft 1997-ci ildə ilk neft hasilatından başlayaraq 2015-ci ilin sonunadək AÇG-dən hasil olunub.

**67,7 milyard**
kubmetr qaz 2006-cı ildə ilk qaz hasilatından başlayaraq 2015-ci ilin sonunadək Şahdəniz yatagından hasil olunub.

**10**
qazma qurğusu, o cümlədən üç səyyar qazma qurğusu hazırda dənizdəki əməliyyatlarımıza cəlb edilib.

# Əməliyyatlarımız



Xəzər regionunda davamlı fəaliyyətimizi saxlamaqla dünya səviyyəli əməliyyat və layihələri həyata keçirmək barədə öhdəliyimizə sadiqik.

BP işçiləri Dərinsulu Günəşli platformalarını birləşdirən körpünün üzərində işi müzakirə edirlər.

# Təhlükəsiz və etibarlı əməliyyatlar

BP dənizdə Azərbaycanın əsas karbohidrogen yataqlarının operatorudur. Quruda biz dünyanın ən böyük kompleks neft və qaz emalı terminallarından birini, həmçinin onu region və dünya bazarları ilə birləşdirən boru kəmərlərini idarə edirik.



Dərinsulu Günəşli platformasının işçisi avadanlıqların arxasında.

2015-ci il ərzində Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG) neft və Şahdəniz qaz yataqlarından hasilat davam etdirildi.

## Azəri-Çıraq-Dərinsulu Günəşli

BP şirkəti Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin adından AÇG yatağının əməliyyatçısıdır. Bu, Xəzər hövzəsinin Azərbaycan sektorunda ən iri neft yatağıdır və Bakıdan təxminən 100 km şərqdə yerləşir. AÇG sərt dəniz dibi relyefinə, o cümlədən yarğanlara və palçıq vulkanlarına malik olan geoloji baxımdan mürəkkəb yataqdır.

AÇG-də hasilat 1997-ci ilin noyabr ayında Çıraq hissəsindən başlayıb. İndi buraya yatağın Mərkəzi, Qərbi və Şərqi Azəri, Dərinsulu Günəşli və Qərbi Çıraq hissələri də daxildir. 2015-ci ilin sonunda AÇG-də ümumilikdə 91 neft hasilatı quyusu, eləcə də 39 suvurma və qazvurma quyusu istismar olunurdu.

AÇG-də hasilat təxminən 2014-cü ilin səviyyəsində davam edib. 2015-ci il ərzində AÇG kompleksindən orta hesabla gündə 634 min barel (ümumilikdə 231 milyon bareldən artıq və ya 31,3 milyon ton) neft hasil etdik.

Həmçinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə (SOCAR) gündə təxminən 8,9 milyon kubmetr AÇG səmt qazı çatdırdıq ki, bu da ümumilikdə 3,2 milyard kubmetrə bərabərdir.

AÇG-də hasilatın optimallaşdırılması istiqamətində Azərbaycan hökuməti, SOCAR və digər tərəfdaşlarımızla sıx əməkdaşlıq edərək əsas diqqəti hasilat göstəriciləri üzrə hədəflərə və planlara yönəltməyə davam etdik. Yeni texnologiyalara və qurğulara gələcəkdə də davamlı surətdə böyük sərmayələrin qoyulması ilə AÇG uzun illər boyunca dünya səviyyəli yataq kimi öz hasilatını davam etdirə bilər.

2015-ci ildə AÇG fəaliyyətləri üzrə əməliyyat xərclərinə təxminən 760 milyon dollar, əsaslı xərclərə isə 1,9 milyard dollar vəsait sərf etdik.

**BP-nin törəmə şirkətlərinin dünyanın müxtəlif yerlərində maye karbohidrogen hasilatındakı xalis payı**

| 2015 | neft | qaz |
|---|---|---|
| ABŞ | 379 | 1528 |
| Avropa | 121 | 266 |
| Azərbaycan | 111 | 219 |
| Digər | 451 | 3483 |




Ümumilikdə gündə cəmi 971 min barel neft və 88 min barel kondensat, şirkətlərin iştirak payı istisna olmaqla.
[a]"Digər"ə Kanada, Cənubi Amerika, Afrika, Asiya (Azərbaycan istisna olmaqla) və Avstraliya daxildir.

**Azəri-Çıraq-Dərinsulu Günəşli (neft hasilatı)**

| Platforma | Hasilatın başlanma tarixi | Ölçü vahidi | Hasilat başlanandan 2015-ci ilin sonunadək | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Çıraq | Noyabr 1997 | milyon barel | 666,1 | 22,6 | **17,3** |
| | | milyon ton | 90,0 | 3,1 | **2,3** |
| Mərkəzi Azəri | Fevral 2005 | milyon barel | 729,2 | 57,1 | **56,2** |
| | | milyon ton | 98,5 | 7,7 | **7,6** |
| Qərbi Azəri | Dekabr 2005 | milyon barel | 668,1 | 54,5 | **40,3** |
| | | milyon ton | 90,4 | 7,4 | **5,4** |
| Şərqi Azəri | Noyabr 2006 | milyon barel | 378,5 | 27,1 | **26,0** |
| | | milyon ton | 51,1 | 3,7 | **3,5** |
| Dərinsulu Günəşli | Aprel 2008 | milyon barel | 351,0 | 53,3 | **51,6** |
| | | milyon ton | 47,6 | 7,2 | **7,0** |
| Qərbi Çıraq | Yanvar 2014 | milyon barel | 58,2 | 18,3 | **39,9** |
| | | milyon ton | 7,9 | 2,5 | **5,4** |
| Cəmi | | milyon barel | 2851,1 | 232,8 | **231,3** |
| | | milyon ton | 385,6 | 31,5 | **31,3** |



Sərnişin daşıma gəmisindən Qərbi Çıraq platformasının görüntüsü.

**Azəri-Çıraq-Dərinsulu Günəşlidən (AÇG) neft hasilatı, 2003-2015**
(milyon barel)




## Şahdəniz

Şahdəniz (ŞD) qaz yatağı 1999-cu ildə kəşf edilib. Yataq sahildən dənizə doğru 70 km məsafədə, suyun dərinliyinin 50-600 metr arasında dəyişdiyi bir ərazidə yerləşir. Onun məhsuldar layının qalınlığı 1000 metrdən artıq, uzunluğu isə 22 kilometrdir. Geoloji baxımdan mürəkkəb olan ŞD çox yüksək təzyiqə və çoxsaylı məhsuldar lay horizontlarına malikdir.

**BP-nin Xəzərdə əməliyyatçısı olduğu və podratçı kimi işlətdiyi əsas obyektlər**




**BP-nin törəmə şirkətlərinin dünyanın müxtəlif yerlərində təbii qaz hasilatındakı xalis payı[a]**
(%)




Ümumilikdə gündə 5 485 milyon kub fut qaz, şirkətlərin iştirak payı istisna olmaqla.
[a]"Digər" ə Kanada, Cənubi Amerika, Afrika, Asiya (Azərbaycan istisna olmaqla) və Avstraliya daxildir.

## Beş ŞD quyusu

gundəlik ümumi neft debitinin səviyyəsinə gorə BP-nin dünya uzrə operatoru olduğu ən məhsuldar hasilat quyuları arasında ilk yerləri tutub.



2015-ci ildə ŞD yatağından qazın Azərbaycan, Gürcüstan və Türkiyə bazarlarına etibarlı şəkildə çatdırılması davam edib. İl ərzində yataqdan təxminən 9,9 milyard kubmetr qaz və 18,3 milyon barel (2,3 milyon ton) kondensat hasil edilib. Şahdənizin hazırda gündəlik hasilat gücü 29,5 milyon kubmetr və ya təxminən 10,8 milyard kubfut qazdır.

2015-ci ildə Şahdənizdə iki hasilat quyusunu tamamladıq. Beş SD quyusu barel ekvivalenti ilə gündəlik ümumi neft debitinin səviyyəsinə görə BP-nin dünya üzrə operatoru olduğu ən məhsuldar hasilat quyuları arasında ilk yerləri tutub.

2015-ci ildə ŞD əməliyyat xərclərinə təxminən 482 milyon, əsaslı xərclərə isə 4,37 milyard dollar vəsait xərclənib, əsaslı xərclərin əksər hissəsi Şahdəniz Mərhələ 2 layihəsi ilə əlaqədar olub.

### Şahdəniz qaz və kondensat hasilatı

| | Hasilatın başlanma tarixi | Ölçü vahidi | Hasilat başlanandan 2015-ci ilin sonunadək | 2014 | **2015** |
|---|---|---|---|---|---|
| ŞD qaz | Noyabr 2006 | milyard kubmetr | 67,7 | 9,9 | **9,9** |
| | | milyard kubfut | 2 390,8 | 348,1 | **348,8** |
| | | milyon barel neft ekvivalenti | 412,1 | 60 | **60,1** |
| ŞD kondensat | Noyabr 2006 | milyon barel | 136,5 | 18,7 | **18,3** |
| | | milyon ton | 17,1 | 2,3 | **2,3** |







Solda: Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsi çərçivəsində Hacıqabul rayonunda boru kəmərinin xəndəyə endirilməsi fəaliyyəti.
Sağda: Şahdəniz Mərhələ 2 platformasının üst modullarının tikintisi davam edir.

**80%**

Tikinti işlərinə cəlb olunmuş 20000-dən çox insanın 80%-dən çoxu Azərbaycan vətəndaşlarıdır.



## Şahdəniz Mərhələ 2

Şahdəniz Mərhələ 2 (ŞD2) Azərbaycandan Avropaya və Türkiyəyə qaz çatdıracaq nəhəng bir layihədir. Bu layihə yeni Cənub Qaz Dəhlizi açmaqla Avropa bazarlarının qaz təchizatını və enerji təhlükəsizliyini gücləndirəcək. ŞD2 dünyanın ən böyük qaz işlənməsi layihələrindən biridir.

Bu layihə nəhəng Şahdəniz yatağından hasil ediləcək illik 16 milyard kubmetr qazın təxminən 3500 km uzunluğunda boru kəməri vasitəsilə Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan və İtaliyaya ixracını təmin edəcək.

Layihənin mühəndis-texniki, təchizat-tədarük və tikinti işlərinin ümumilikdə 66%-dən çox hissəsi tamamlanıb və işlər Şahdəniz Mərhələ 2 layihəsindən ilk qazın 2018-ci ildə əldə edilməsi planına uyğun irəliləyir. Avropaya ilk təchizat isə 2020-ci ilə gözlənilir.

2015-ci ilin sonunda Azərbaycanda artıq 20000-dən çox insan bütün əsas müqavilələr üzrə tikinti işlərinə cəlb olunmuşdu ki, onların da 80%-dən çoxu Azərbaycan vətəndaşlarıdır. ŞD2 layihəsinin və Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsinin ümumi xərclərinin 28 milyard dollar olacağı təxmin edilir.

ŞD2 layihəsinə körpü ilə birləşdirilən iki yeni platforma və 26 sualtı quyu, suyun 550 metrədək dərinliyində inşa olunan 500 km uzunluğunda sualtı boru kəmərləri və Səngəçal terminalının genişləndirilməsi daxildir.

Ölkədəki bütün tikinti-quraşdırma və istehsalat sahələrində - həm dənizdə, həm də quruda, o cümlədən Səngəçal terminalı, Bakı yaxınlığındakı ATA (AMEK/Tekfen/Azfen) sahəsi, Bakı Dərin Özüllər Zavodu və boru kəməri marşrutu boyunca irimiqyaslı işlər davam edir. Daha bir mühüm nailiyyət Bakı Gəmiqayırma Zavodunda inşa edilən "Xankəndi" sualtı tikinti gəmisi üçün iki iri gövdə seksiyasının Volqa-Don kanalı vasitəsilə təhlükəsiz şəkildə Sinqapurdan Bakıya gətirilməsi oldu. Seksiyalar Bakı Gəmiqayırma Zavodunda inşası başa çatmış burun hissəsi ilə birləşdiriləcək. Ümumi inşası bitdikdən sonra bu yeni gəmi Şahdəniz 2 sahəsinə aparılaraq sualtı qurğuların tikintisini həyata keçirəcək.

2015-ci ilin iyul ayında "İstiqlal" qazma qurğusu sertifikasiya və yenidənqurma üçün "Caspian Shipyard Company" tərsanəsinə gətirilib. "Heydər Əliyev" qazma qurğusu isə Şahdəniz Mərhələ 2 layihəsinin öncəqazma proqramı çərçivəsində iki quyunun qazma əməliyyatlarını bitirib və üçüncü quyunun aşağı hissəsini qazmağa başlayıb. Bu iki qazma qurğusu artıq ilk qazın hasilatına və ondan sonrakı tədrici artırılmasına hazırlıq çərçivəsində doqquz hasilat quyusu qazıb. Qazma işləri hasilatın planlaşdırılan sabit səviyyəsinə nail olmaq üçün tələb olunan bütün quyuların qazılması istiqamətində davam edəcək.

## Səngəçal terminalı

Neftin və qazın Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG) və Şahdənizdən sualtı boru kəmərləri ilə Səngəçal terminalına nəqli davam etdi.

Terminalın gündəlik texnoloji emal gücü hazırda 1,2 milyon barel neft və 29,5 milyon kubmetr Şahdəniz qazı təşkil edir. AÇG səmt qazı da daxil olmaqla qaz üzrə ümumi texnoloji emal və ixrac gücü gündəlik 49,3 milyon standart kubmetrdir.

**Şahdəniz Mərhələ 2 və Cənub Qaz Dəhlizi**




## Azəbaycanda hazırlanıb

Səngəcal terminalının genişləndirilməsi üçün

lazım olan polad və boruların hamısı yerli tikinti-quraşdırma sahələrində hazırlanıb.



Qaz CQBK ilə və terminalın qaz emal qurğularını "Azəriqaz"ın milli qazpaylama şəbəkəsinə birləşdirən SOCAR qaz kəməri ilə ixrac edilir.

2015-ci ildə Səngəçal terminalından 296 milyon bareldən artıq neft və kondensat ixrac edildi. Bunun təxminən 261,6 milyon bareli Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri, təxminən 31,4 milyon bareldən çoxu Qərb İxrac Boru Kəməri (QİBK), təxminən 2,2 milyon bareli dəmir yolu və təxminən 0,9 milyon bareli kondensat ixrac xətti ilə ixrac edilib.

ŞD2 layihəsi üçün texnoloji emal qurğularının təmin olunması məqsədilə Səngəçal terminalının genişləndirilməsi üzrə iş davam edib. Yeni giriş yolu açılıb, bu yol insanları, qurğuları və avadanlıqları tikinti sahəsinə daşıyan nəqliyyat vasitələri üçün daha təhlükəsiz və səmərəlidir. Mərkəzi nəzarət-idarəetmə binasının 16 genişləndirmə modulunun hamısı quraşdırılıb, avadanlığın quraşdırılması və polad konstruksiyaların hazırlanması işləri isə qrafiki qabaqlayır.

Şahdəniz Mərhələ 2 layihəsinin qurudakı obyektlərini təchiz etmək üçün Bakıda dörd müxtəlif yerdə doqquz quraşdırma və boya sexi fəaliyyət göstərir. Tələb olunan 15000 tondan artıq polad və 150000 metr boru sahədə xüsusi təşkil edilmiş qaynaq sexində və bu ərazidəki sahədənkənar iri metalkonstruksiya sexlərində hazırlanır.

Səngəçal terminalının genişləndirilməsi üçün lazım olan poladın və boruların hamısı yerli tikinti-quraşdırma sahələrində hazırlanıb. Bu layihə yerli iş yerlərinin açılmasına mühüm təsir göstərib, quruda görülən tikinti-quraşdırma işlərində daimi çalışan 1200 işçi birbaşa BP tərəfindən, 340 nəfər isə podratçı şirkətlər vasitəsilə işə götürülüb.

## Bakı-Tbilisi-Ceyhan boru kəməri

Uzunluğu 1768 km olan BTC boru kəməri 2006-cı ilin iyun ayında istismara verilib. O vaxtdan 2015-ci ilin sonuna qədər BTC ilə təxminən 2,36 milyard barel (315 milyon ton) xam neft daşınaraq 3112 tankerə yüklənib və dünya bazarlarına yola salınıb.

Hazırda BTC-nin gündəlik ötürücülük qabiliyyəti 1,2 milyon bareldir. 2015-ci ildə bu boru kəməri ilə 262,8 milyon barel (35 milyon ton) xam neft ixrac edilərək Türkiyənin Ceyhan limanında 361 tankerə yüklənib. Sentyabrda BTC Ceyhanda 3000-ci tankerin yüklənməsini qeyd etdi.

BTC boru kəməri hazırda, əsasən, Azərbaycandan AÇG-də hasil edilən nefti və Şahdənizdə hasil olunan kondensatı nəql edir. Bundan əlavə, Türkmənistandan və Qazaxıstandan gələn xam neft də BTC ilə nəql olunmağa davam edir.

## Şahdəniz Mərhələ 1

Şahdəniz – BP-nin 1968-ci ildə Alyaskada Prudo Bey yatağını kəşf etməsindən sonra ən böyük kəşfidir.

Şahdəniz Mərhələ 1 layihəsinin işlənilməsi çərçivəsində BP-nin dəniz dibindən 6 000 metr dərinlikdə və yüksək təzyiq altında olan bir sıra ən çətin quyuları qazılıb. Biz bu günə qədər cəmi yeddi il ərzində Xəzərdə mövcud olan ən dərin quyunu qazmış, dənizdə platforma quraşdırmış, quruda terminal tikmiş, Azərbaycan və Gürcüstandan keçməklə Türkiyə sərhədinə qədər 700 kilometr uzunluğunda Cənubi Qafqaz Boru Kəmərini çəkmişik.

Texniki təcrübəmiz və obyektlərdə apardığımız cari texniki xidmət Şahdənizə regionun arasıkəsilmədən təhlükəsiz və etibarlı şəkildə qazla təchiz olunmasına kömək edib və demək olar ki, sistemin 100% etibarlılığına nail olmuşuq. Şahdəniz Mərhələ 1 layihəsindən 2015-ci il boyunca ən yüksək sabit hasilat əldə olunmuş, 9,9 milyard standart kubmetr qaz və təxminən 18,3 milyon barel kondensat hasil edilmişdir.



## Cənubi Qafqaz Boru Kəməri

Uzunluğu 691 km olan Cənubi Qafqaz Boru Kəməri (CQBK) 2006-cı ilin sonlarından istismar olunur, Şahdəniz qazını Azərbaycana, Gürcüstana və Türkiyəyə çatdırır. 2015-ci il ərzində kəmərin gündəlik ötürücülük gücü 18,6 milyon kubmetr qaz olub.

2015-ci ildə CQBK üzrə əməliyyat xərcləri təxminən 47,5 milyon, əsaslı xərclər isə 1,1 milyard dollar təşkil edib.

### CQBK-nin genişləndirilməsi layihəsi

2015-ci ildə CQBK-nin genişləndirilməsi (CQBKG) layihəsi üzrə Azərbaycan və Gürcüstanda boru kəməri marşrutu boyunca işlər davam etdi. İyunda Azərbaycanda əsas xəttin çəkilməsinə başladıq, 2015-ci ilin sonuna qədər təxminən 71 kilometr boru qaynaqlandı. Xəndək qazılması, boruların xəndəyə endirilməsi, düzülməsi və üstünün torpaqla örtülməsi işləri noyabrın sonunda başlayıb və hal-hazırda davam edir. Kəmərin Azərbaycan hissəsi üçün lazım olan borularının 60%-dən çoxu ilin sonunda artıq Muğan, Kürdəmir, Yevlax və Qazançıdakı borusaxlama sahələrində idi. Biz Azərbaycanda boru kəməri dəhlizi üçün tələb olunan torpağın, demək olar ki, hamısını əldə etmişik.

## Qərb İxrac Boru Kəməri

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin əməliyyatçısı kimi BP həmçinin QİBK-ni idarə edir. Uzunluğu 829 km olan bu kəmər nefti Xəzər hövzəsindən Səngəçal terminalı vasitəsilə Gürcüstanın Qara dəniz sahillərində yerləşən Supsa terminalına nəql edir. 1997-ci ildən sonra BP və onun tərəfdaşları boru kəmərində əsaslı təmir işləri həyata keçirib. 2015-ci ildə bu boru kəməri vasitəsilə Səngəçal terminalından 31,4 milyon barel neft nəql edilib.

## Dövri texniki xidmət işləri

Dövri texniki xidmət, obyektlər işlək vəziyyətdə olduğu zaman həyata keçirilməsi mümkün olmayan mühüm texniki xidmət, təftiş və ya layihə işlərinin aparılması məqsədilə fəaliyyətdə olan obyektlərin planlaşdırılmış şəkildə dayandırıldığı dövrlərdə aparılır. İllik iş proqramı çərçivəsində, may ayında Qərbi Azəri platformasında, avqust ayında Şahdəniz platformasında və Səngəçal terminalı daxilindəki Şahdəniz qurğusunda, dekabr ayında isə Çıraq platformasında dövri texniki xidmət işlərini uğurla başa çatdırdıq.

Bu planlı fasilələr əməliyyatların uzun müddət təhlükəsiz və etibarlı şəkildə həyata keçirilməsi üçün son dərəcə əhəmiyyətlidir.

## Geoloji kəşfiyyat işləri

BP SOCAR-la Abşeron yarımadası ətrafındakı dayazsulu ərazidə (AYDH) potensial perspektiv strukturun birgə kəşfiyyatı və işlənilməsi üzrə yeni bir geoloji kəşfiyyat müqaviləsi imzalayıb. Müqavilə ərazisi yarımadanın cənubunda dənizin 40 metrədək dərinliyində yerləşir. Kollektorun potensial dərinliyi 3000-5000 metrdir.

2015-ci ildə hasilatın pay bölgüsü sazişi Milli Məclis tərəfindən ratifikasiya edildi. Bu, BP-nin dünyanın digər yerlərində dayazsulu sahələrdəki təcrübəsini və təkmilləşmiş texnoloji həllərini Xəzər hövzəsinə gətirməsinə imkan verir. AYDH müqavilə sahəsində 2 ölçülü seysmik araşdırmalar 2015-ci ilin dekabrında təhlükəsiz şəkildə tamamlandı və biz müqavilə sahəsi üçün 3 ölçülü seysmik çəkiliş proqramının planlaşdırılmasına başladıq.

Bundan əlavə, BP Bakıdan təqribən 125 km (78 mil) cənub-şərqdə yerləşən Şəfəq-Asiman strukturu üçün seysmik məlumatların təhlilini başa çatdırıb. Bu, 18 aylıq işdir və bu mərhələdən sonra ilk geoloji kəşfiyyat quyusunun planlaşdırılması üçün daha bir il tələb olunur. Şəfəq-Asiman bloku dənizin dərinsulu hissəsində suyun dərinliyinin təxminən 650-800 metr olduğu ərazidə yerləşir və kollektorun dərinliyi təxminən 7000 metrdir.

# Əməkdaşlarımız

Bizim Azərbaycandakı uzunmüddətli uğurumuz əməkdaşlarımızın səriştəsi, peşəkarlığı, təcrübəsi və əzmkarlığından asılıdır.



İş təcrübəsi az olan və ya heç olmayan gənclərin təliminə sərmayə qoyur, yeni istedadları cəlb edir və bütün karyeraları boyunca işçilərimizə geniş çeşiddə inkişaf və karyera imkanları təklif edirik.

# İşçi heyətimizin idarə edilməsi

Məqsədimiz əməliyyatların təhlükəsiz və etibarlı şəkildə davam etdirilməsini təmin etmək üçün tələb olunan səriştələrə diqqəti cəmləşdirməklə öz işçi heyətimizin səriştələrini inkişaf etdirməkdir.



İşçilərimiz Səngəçal terminalının emal sahəsində işi müzakirə edir.

### BP-nin Azərbaycandakı ixtisaslı daimi işçi heyəti

Bu diaqramda yerli vətəndaşların faizi də göstərilib




### BP-nin Azərbaycanda işçiləri və agentlik müqaviləsi əsasında işləyən əməkdaşları




BP-nin icra göstəriciləri yüksək səriştəli, əzmkar və istedadlı işçi qüvvəsindən asılıdır. Bizim fərdi müxtəlifliklərə hörmətlə yanaşmaq və bütün əməkdaşlarımıza bərabər fürsət və imkanlar yaratmaq öhdəliyimiz var.

2015-ci ildə sərt bazar şərtlərini nəzərə alaraq rəqabət qabiliyyətliliyimizi təkmilləşdirməyə səy göstərdik və lazımsız struktur mürəkkəbliyini aradan qaldırmaq üçün imkanlar axtardıq. BP-nin daha məqsədyönlü şirkətə çevrilmək məqsədinə cavab verməsi üçün təşkilati strukturumuzu nəzərdən keçirdik və nəticədə il ərzində bir sıra yerli və xarici vətəndaşlar ixtisara salındı. BP-nin Azərbaycandakı işçilərinin ümumi sayı il ərzində 260 nəfər azaldılaraq ilin sonunda 3485 nəfərə endirildi. Bu rəqəmə 3120 daimi işçi də daxildir ki, onların 2705 nəfəri Azərbaycan vətəndaşlarıdır. İlin sonunda 30 nəfər Azərbaycan vətəndaşı xarici ölkələrə təyinatda olub.

## Milli işçi qüvvəsinin inkişafı

Azərbaycanda güclü milli işçi qüvvəsi yetişdirmək əsas prioritetlərimizdən biri olaraq qalır və yerli işçi heyətinin sayını artırmaq və 2018-ci ilin sonuna qədər yerli işçi heyətinin nisbətini artıraraq 90%-ə çatdırmaq üçün işçilərin milliləşdirilməsi üzrə beşillik planımız var. İş təcrübəsi az olan və ya heç olmayan gənclərin təliminə sərmayə qoyur, yeni istedadları cəlb edir və bütün karyeralar boyunca işçilərimizə geniş çeşiddə inkişaf və karyera imkanları təklif edirik.

Əvvəlki illərdə öz əsas işçi heyətimizin – BP-nin Azərbaycandakı daimi əməkdaşlarının milliləşdirilməsinə səy göstərmək diqqət mərkəzimizdə olub. Bununla yanaşı, SOCAR ilə bağladığımız müqavilələr və kadrların milliləşdirilməsi ilə bağlı öhdəliyimiz artıq həm daimi, həm də müddətli çalışan ixtisaslı işçilərimizi əhatə edir. Hüquqi şərtlər baxımından 2014-cü ildə əməliyyat tələblərini qarşılamaq üçün agentliklər tərəfindən müvəqqəti götürülmüş işçi qüvvəsinin əksəriyyəti BP-də müddətli müqavilələr ilə işə götürüldü və BP əməkdaşlarının hamısı – istər müddətli, istərsə də daimi – artıq ümumi işçi heyətinə daxildir.

2015-ci ilin sonuna BP-nin ixtisaslı işçi heyətində ölkə vətəndaşlarının nisbəti 84% idi, əvvəlki ildə isə bu göstərici 82% olmuşdu. Əgər yalnız daimi işçiləri nəzərə alsaq, göstərici 87%-dir ki, bu da həmçinin 2014-cü ildən azca artıqdır.

BP-nin Azərbaycanda yüksək vəzifə tutan yerli işçilərinin sayı 2015-ci ildə 275 nəfərə çatdı. Bu, yerli ofisdə çalışan yüksək vəzifəli işçilərin 48%-i və əvvəlki illə müqayisədə 20%-ə yaxın artım deməkdir. Onların təxminən 21%-i qadınlardır və əksəriyyəti maliyyə və insan resursları sahələrində çalışır. 2015-ci il ərzində yüksək vəzifəli daha 30[a] Azərbaycan vətəndaşı başqa ölkələrdə təyinatda idi.

BP-nin Azərbaycanda çalışan orta səviyyəli menecerlərinin 88%-i (516 nəfərdən 454-ü) yerli işçilər idi. Bundan əlavə, orta səviyyəli yerli işçilərdən 29 nəfəri 2015-ci il ərzində xaricdə təyinatda oldu.

[a] Bu rəqəm 2-ci paraqrafda qeyd edilmiş xaricdə təyinatda olan 30 işçi ilə qarışdırılmamalıdır. 31 dekabr tarixinədək ümumi sayı 30 olan işçi hələ də təyinatda idilər və il ərzində təyinatda olan 80 işçidən 30-u yüksək vəzifəli olmuşdur.

## Yüksək standartlara doğru – Aynur Əlizadə

BP-nin Qlobal Əməliyyatlar Təşkilatının regional icra göstəriciləri üzrə meneceri Aynur Əlizadəyə "BP Azərbaycan" şirkətində ən yüksək vəzifəli qadın işçilərdən biri səviyyəsinə gəlməsində zəngin karyerası kömək edib.

Əməliyyatlar üzrə regional rəhbərlik qrupunun üzvü kimi Aynur əməliyyatların icrasına nəzarət edilməsində, vəzifələri müyyənləşdirmədə və sona çatdırılma prosesində aparıcı şəxsdir. "Mənim vəzifəm iş icrasını və işin keyfiyyətini sistemli şəkildə təkmilləşdirmək və əməliyyatlarımızda riskləri azaltmaqdır. Buna nail olmaq üçün standartlaşdırılmış icra göstəricilərini idarəetmə sistemlərini, proseslərini və vasitələrini bütün qrup və şöbələrdə tətbiq etməliyik", - Aynur deyir.

Aynur həmçinin platformalar, qazma qurğuları, qurudakı neft və qaz terminalı, ixrac boru kəmərləri də daxil olmaqla BP-nin Azərbaycandakı dəniz və quru obyektlərinin icra göstəricilərinin idarə olunmasına nəzarət etməklə qurğuların və ixrac əməliyyatlarının səmərəliliyinə töhfə verir. "Biz təhlükəsizlikdə və etibarlılıqda güzəştə getmədən hasilat hədəflərimizə çatmaq istiqamətində işləməliyik".



### Beşillik milliləşdirmə planı

Azərbaycanda BP şirkəti ilə SOCAR arasında 2013-cü ilin noyabr ayında beşillik kadrların milliləşdirilməsi planı imzalanıb. Bu sənəd həm ümumi, həm də funksional səviyyədə 2014-cü ildən 2018-ci ilədək hər il üzrə milliləşdirmə hədəflərini müəyyənləşdirir. Sənəd həmçinin xarici vətəndaşların tutduqları hazırkı və gələcək vəzifələr üzrə milliləşdirmə qrafikini də təsvir edir.

2014-cü ilin sentyabr ayında BP Azərbaycanda SOCAR-la işəgötürmə sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzaladı. Milliləşdirmə strategiyasının tərkib hissəsi olaraq BP mütəxəssisləri Bakı Ali Neft Məktəbinin tələbələri üçün 20-dən artıq proqramdankənar sessiya və digər təhsilə yardım tədbirləri keçirdi.

BP Azərbaycanda podratçıları öz milliləşdirmə planlarını hazırlayıb həyata keçirmələri üçün dəstəkləməyə davam edir. O cümlədən, öz təcrübəmizi bölüşür, icra göstəricilərinin hazırlanmasında məsləhət verir, icra göstəricilərinin qiymətləndirilməsi çərçivəsində planın həyata keçirilməsinə nəzarət edirik.

## Əcnəbi işçi qüvvəsi

İşçi heyətimizi milliləşdirmək öhdəliyimizlə yanaşı, inanırıq ki, Azərbaycandan olan işçilərin xaricdə, əcnəbilərin də Azərbaycanda məqbul nisbətdə beynəlxalq təyinatı inkişaf üçün faydalıdır. 2015-ci ildə 80-ə yaxın yerli əməkdaşımız BP-nin Azərbaycandan kənardakı obyektlərində əcnəbi mütəxəssis kimi işləyib. Onların 30%-dən çoxu quyular üzrə ixtisaslaşıb.

2015-ci ilin sonunda BP-nin Azərbaycanda işləyən 415 əcnəbi əməkdaşı var idi. Onların 60%-dən çoxu Avropa, təxminən 30%-i isə ABŞ-dan idi. Qalanları Avstraliya, Kanada, Kolumbiya, Misir, Hindistan, İndoneziya, Oman, Trinidad və Tobaqodan olub. İl ərzində ölkəyə 44 yeni əcnəbi işçi gəlib, 103-ü isə ölkəni tərk edib.

**BP-nin Azərbaycanda işəgötürmə üzrə statistik göstəriciləri**

Bu cədvəl şirkətə yeni qəbul olunmuş insanların sayını əks etdirir

| | Ehtiyac olduqca işəgötürmə | | | | Məzunları işəgötürmə | | | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2014 | | **2015** | | 2014 | | **2015** | | 2014 | **2015** |
| | Qadın | Kişi | **Qadın** | **Kişi** | Qadın | Kişi | **Qadın** | **Kişi** | | |
| Biznesə dəstək | 4 | 1 | **1** | | | | | | 5 | **1** |
| Əlaqələr və şirkətxarici işlər | | 2 | | | | | | | 2 | **0** |
| Uyğunluq və etika | 1 | 1 | | | | | | | 2 | **0** |
| Mühəndis-texniki | | 3 | | **2** | 2 | 7 | | **5** | 12 | **7** |
| Maliyyə | | | | **1** | | | | | 0 | **1** |
| Sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühit | | 7 | | | 1 | 1 | | | 9 | **0** |
| İnsan resursları | 5 | 2 | | **1** | 2 | | | | 9 | **1** |
| İnformasiya texnologiyaları və xidmət | | | | | | | | | 0 | **0** |
| Əməliyyatlar | 2 | 11 | **2** | **17** | | | | | 13 | **19** |
| Tədarük və təchizatın idarə edilməsi | | | | | 1 | 3 | | | 4 | **0** |
| Layihələr | 2 | 8 | | **5** | | | | **2** | 10 | **7** |
| Geoloji-geofiziki işlər | | 3 | **1** | **1** | 2 | 3 | **1** | **2** | 8 | **5** |
| Vergilər | 1 | 1 | | **1** | | | | | 2 | **1** |
| Quyular | 1 | 4 | | **2** | 2 | 5 | | **1** | 12 | **3** |
| Cəmi – məzunları işəgötürmə | | | | | 10 | 19 | **1** | **10** | 29 | **11** |
| NİMTP məzunları | | | | | 4 | 41 | **2** | **13** | 45 | **15** |
| Cəmi – ehtiyac olduqca işəgötürmə | 16 | 43 | **4** | **30** | | | | | 59 | **34** |
| Texnikləri işəgötürmə | 1 | 112 | | **54** | | | | | 113 | **54** |



2015-ci il Neft və Qaz sərgisi zamanı tələbə (solda) BP işçisi ilə söhbət edir.

## İşəgötürmə

BP-nin məqsədi əməkdaşların bir-birinə hörmət və ləyaqətlə yanaşdığı və öz potensiallarından tam istifadə edə bildikləri pozitiv bir iş mühiti yaratmaq və saxlamaqdır. Bizim əməkdaşların işə götürülməsində və işdə irəli çəkilməsində hər kəsə qabiliyyətinə görə imkan yaratmaq öhdəliyimiz var.

İşəgötürmə proseslərimizin şəffaflığına və səmərəliliyinə əmin olmaq üçün onları daim nəzərdən keçirir və monitorinqini aparırıq. Bundan əlavə, Britaniyada yerləşən müstəqil bir agentlik işəgötürmə fəaliyyətlərimizin keyfiyyətini yoxlamaq üçün mütəmadi olaraq qlobal sorğu aparır. BP Azərbaycanda sorğunun bütün müddəaları üzrə ən yüksək göstəriciyə malik ölkələr arasında olub.

2015-ci ildə biz hər il keçirilən "Məzunların və yay təcrübəsi keçən tələbələrin işə qəbulu" proqramımız çərçivəsində təqribən 3200 ərizə qəbul etdik. Sonda 28 yay təcrübəçisini və 38 yeni məzunu işə götürdük. Bunlardan 23 məzunu BP-də daimi işçi kimi "Çəllenc" proqramımıza qəbul etdik. Qalan 15 nəfər isə neft-qaz ixtisaslı məzunların təkmilləşdirilməsi proqramına (NİMTP) qəbul olundu. "Çəllenc" və NİMTP barədə daha ətraflı məlumat üçün səhifə 17-yə baxın.

Texniklərin işə cəlb olunması üçün keçirdiyimiz kampaniya nəticəsində Azərbaycan vətəndaşı olan 54 texniki işə götürdük. Yeni işə götürülmüş texniklər dənizdəki və qurudakı iş sahələrinə göndərilməzdən əvvəl Xəzər Texniki Təlim Mərkəzində 12-aylıq intensiv ingilis dili və texniki təlim proqramı keçirlər.

BP-nin Azərbaycanda xüsusi açılan bütün iş elanları *bp.com/xezer* ünvanında verilir. 2015-ci ildə iş elanlarımızla bağlı 10000-dən çox ərizə aldıq, 17 nəfər yerli işçini xüsusi səriştə tələb edən işlərə götürdük.

## Əməkdaşlarla ünsiyyət və münasibətlər

### Texniklərin forumu

BP-nin texniklərin forumu ön cəbhədə – hasilat platformalarında, terminallarda və boru kəmərləri boyunca işləyən texniklərlə mühüm əlaqə vasitəsi olmaqda davam edir. Biz texniklərin təliminə və inkişafına böyük sərmayə qoyur və işçilərin bu qrupu ilə ən yüksək rütbəli rəhbərliyin müntəzəm görüşlərinin əhəmiyyətini başa düşürük. Bu görüşlərdə onlar rəy və təkliflərini verə, təcrübələrini bölüşə və onları narahat edən istənilən məsələni qaldıra bilirlər.

Bu forumlar ilk dəfə 2008-ci ildə təşkil olunub və indiyə qədər təqribən 600 nəfərin iştirakı ilə 20 forum keçirilib. 2015-ci ildə 60-a yaxın BP texnikinin iştirakı ilə iki forum keçirdik.

### İşçiləri dinləmək üçün nahar yeməkləri

Bu nahar yeməkləri regional rəhbər qrupumuzun üzvləri ilə müxtəlif sahələrdə işləyən işçiləri qeyri-rəsmi nahar və bizneslə əlaqəli mövzuları açıq müzakirə etmək üçün bir araya gətirir. Bu naharlar işçilərə öz narahatlıqlarını bölüşməyə, suallarını verməyə və rəhbərlikdən birbaşa cavab almağa fürsət yaradır, rəhbərliyə isə təşkilatın müxtəlif təbəqələrinin fikirlərini dinləməyə imkan verir. 2015-ci ildə 60-dan artıq əməkdaşın iştirakı ilə üç belə nahar təşkil edilib.

### Kredit almağa dəstək proqramı

Kredit almağa dəstək proqramımızı 2012-ci ildə tətbiq etməyə başlamışıq. Şirkətdə ən azı üç il işləyən bütün Azərbaycan vətəndaşlarının bu proqramdan yararlanmaq hüququ var. Proqram çərçivəsində əməkdaşlar ev, yaxud mənzil almaq və ya təmir etmək, ev tikdirmək, eləcə də 18 yaşına çatmamış övladlarının təhsili üçün kreditlərin ödənişində yardım almaq imtiyazı əldə edirlər.

2015-ci ildə 300-dən artıq əməkdaşımız bu proqram üzrə kredit almaq üçün ərizə verdi, bununla da iştirakçıların ümumi sayı 2400-ü keçdi. Ümumilikdə, 2012-ci ildən etibarən proqram üzrə verilən kreditlərin məbləği 36,8 milyon dollardan çox olub.

### Digər fəaliyyətlər

Azərbaycanda BP şirkətində üst-üstə 10, 15 və ya 20 il işləyən əməkdaşlarımız yubiley münasibətilə uzunmüddətli xidmətə görə mükafatlandırılır. Mükafatlar ümumi görüşlərdə yüksək vəzifəli rəhbərlik tərəfindən təqdim edilir. 2008-ci ildən bu vaxtadək bu yolla 1560 işçinin fəaliyyəti qiymətləndirilib.

2015-ci ildə aktual məsələləri müzakirə etmək üçün beş ümumi yığıncaq keçirilib. Biz həmçinin informasiyanın yayılması və müxtəlif kampaniyaların keçirilməsi üçün regional intranetimizdən və daxili *"Compass"* jurnalından istifadə edirik. 2015-ci ildə bu jurnalın həm Azərbaycan, həm də ingilis dilində dörd buraxılışını nəşr edərək BP-nin Azərbaycan, Gürcüstan və Türkiyədəki biznes strukturlarında yaydıq.

**YÜKSƏK QİYMƏTLƏR**

BP Azərbaycan BP-nin digər bölümləri ilə müqayisədə qlobal sorğunun işəgötürmə təcrübələrinin bütün müddəaları üzrə ən yüksək göstəriciyə malik ölkələr arasında olub.







Solda: BP əməkdaşı Xəzər Texniki Təlim Mərkəzində yeni texniklərə təlim keçir.
Sağda: Biz sözü azad demə mədəniyyətini gücləndirmək üçün imkanlar axtarırıq.

## Təhsil və inkişaf

Əməyin təhlükəsizliyi, texniki, idarəetmə və biznes davranışları üzrə geniş çeşidli təlimlər təşkil edirik. 2015-ci ildə ümumilikdə 23000-dən artıq iştirakçısı olan 2000-dən artıq təlim sessiyası keçirildi. Bu sessiyaların təxminən 82%-i Azərbaycan dilində keçirildi.

### Davamlı peşə təlimi

Yerli əməkdaşlarımıza öz ixtisas sahələri üzrə əlavə dərəcə və ya sertifikatlar almaqda kömək etmək məqsədilə maliyyə yardımı göstərməyə davam etdik. 2015-ci ildə ümumilikdə 58 əməkdaşımız bu proqram çərçivəsində yardım aldı. Onlardan 15 nəfəri Britaniya təhsil ocaqlarında magistr dərəcəsi almaq üçün ərizə verdi, daha 43 əməkdaşımız isə magistratura səviyyəsində digər təhsil imkanlarını seçdi.

### "Çəllenc" və neft-qaz ixtisaslı məzunların təkmilləşdirilməsi proqramı

Bizim qlobal "Çəllenc" ("Sınaq") proqramımız Azərbaycanda 2003-cü ildən fəaliyyətdədir. Onun məqsədi məzunların illik işə götürülməsi proqramı vasitəsilə seçilmiş və sənayedə cüzi ilkin təcrübəsi olan istedadlı məzunları inkişaf etdirməkdir. "Çəllencər" adlandırılan iştirakçılar üçillik proqram ərzində, adətən, iki-üç fərqli vəzifə yerinə yetirirlər.

2012-ci ildən başlayaraq "Çəllenc" proqramına qəbul ola bilməyən seçilmiş məzunları inkişaf etdirmək üçün Neft-qaz ixtisaslı məzunların təkmilləşdirilməsi proqramına (NİMTP) başladıq. Bu 11 aylıq təlim proqramı həmin məzunlara öz texniki biliklərini, biznes haqqında məlumatlarını, ünsiyyət bacarıqlarını və ingilis dili biliklərini dərinləşdirməyə kömək etmək üçün hazırlanıb. Proqram Heriot-Uatt Universiteti və "TTE-Petrofak" şirkəti ilə birgə həyata keçirilir.

2015-ci ildə "çəllencer" kimi işə götürülmüş 11 məzundan əlavə, daha 12 məzun da NİMTP-nı başa vuraraq "Çəllenc" proqramına qoşuldu və "çəllencer"lərin ümumi sayı 23 oldu. İlin sonunda Azərbaycanda 155 "çəllencer" işləyirdi.

### Xəzər texniki təlim mərkəzi

BP və Xəzər regionundakı tərəfdaşlarının təsis etdikləri Xəzər texniki təlim mərkəzi Azərbaycan, Gürcüstan və Türkiyədə işçi heyətinin milliləşdirilməsi üzrə ortaq məqsədə xidmət edir. Bundan əlavə, Oman və İraqdakı əməliyyatlarımızın mərkəzin xidmətlərindən istifadə etməsi ilə bura BP qrupu üzrə yüksək ixtisaslı kadrlar hazırlayan regional mərkəzə çevrilib. 2004-cü ildən bu vaxtadək mərkəzin hazırlıq proqramından təxminən 1150 texnik məzun olub. 2015-ci ildə 55 nəfər texnik təlimi başa vuraraq BP-nin obyektlərinə yola salınıb.

### Digər proqramlar

Öz işçi heyətimizə və onların uyğun ailə üzvlərinə dil təlimi təklifimizi davam etdirdik. 2015-ci ilin sonuna qədər 235 nəfər ingilis dili dərslərinə gedirdi. Azərbaycan dilini seçənlər isə 80 nəfərə yaxın idi. Bundan əlavə, əcnəbi əməkdaşlara Azərbaycanın tarixi, mədəniyyəti və adət-ənənələri barədə söhbətlər təklif edilir.

# Davranış kodeksimiz

Biz öz davranış kodeksimizdə yüksək etik standartlara əməl etmək öhdəliyimizi müəyyənləşdiririk.

Davranış kodeksimiz dəyərlərimizə əsaslanır və BP-də necə işləməyimiz barədə prinsip və gözləntilərimizi izah edir. Bu, təhlükəsiz, məsuliyyətli və etibarlı işləməyi; öz əməkdaşlarımıza hörmətlə yanaşmağı və onlara dəyər verməyi; tərəfdaşlarımızla və təchizatçılarımızla necə işləməyimizi; BP əmlakının qorunmasını; eləcə də hökumətlərlə və icmalarla işləməyi əhatə edir.

## Etik normalar və qaydalara uyğunluq üzrə təlim

Əməkdaşlarımız, podratçılarımız və təchizatçılarımız üçün davranış kodeksinə, etik normalara və qaydalara uyğunluğa aid seminarlar keçiririk. 2015-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyədə təşkil etdiyimiz 136 üz-üzə təlim sessiyasında BP işçiləri və podratçıların əməkdaşları daxil olmaqla təxminən 2400 nəfər iştirak etdi, daha 3700 əməkdaş isə elektron təlim modulu üzrə kursu başa vurdu.

### Dəyərlərimiz və davranışlarımız

Nəyə inandığımız, hansı davranışı hədəf seçdiyimiz və bir təşkilat olaraq nəyə can atdığımız haqqında ortaq anlayışımızı ifadə edən beş dəyərimiz var:

- Təhlükəsizlik
- Hörmət
- Mükəmməllik
- Cəsarət
- Vahid komanda

Dəyər və davranışlarımız kodeksimizin təməlini təşkil edir. Bunlar BP-nin öz nüfuzunu qoruyub saxlamasına və bir şirkət olaraq bizim nailiyyət qazanmağımıza təminat yaratmaq üçün hər birimizin necə hərəkət etməli olduğumuzu müəyyənləşdirir. Kodeksin məğzi odur ki, BP əməkdaşlarının düzgün qərar verəcəyinə, bir sual və ya onları narahat edən məsələ varsa, öz sözlərini deyəcəyinə inanır. Məqsədimiz onların gündəlik işimizdə məsuliyyətli davranışa çevrilməsini təmin etməkdir. Bu dəyərlər bizim öz işçilərimizdən nə gözlədiyimizi müəyyən edir, qrup, komanda və fərdi səviyyədə necə işlədiyimizlə ayrı-ayrı fərdlərin mükafatlandırılmasını əlaqələndirən əməkhaqqı sxemi ilə gücləndirilir.

Təlim sessiyalarında sözünü azad şəkildə deməyin əhəmiyyəti və xoş niyyətlə məlumat verənlərə qarşı qisas alınmasına BP-nin sıfır dözümlülük siyasəti vurğulandı. Bizim məqsədimiz elə bir mühit yaratmaqdır ki, əməkdaşlarımız və podratçılarımız qeyri-etik, təhlükəli və potensial ziyan vura biləcək davranışlar barədə narahatlıqlarını rahat və təhlükəsiz şəkildə qaldıra bilsinlər.

Əməkdaşların etik normalar və qaydalara uyğunluq məsələləri ilə bağlı məlumatlandırılması məqsədilə rüblük bülletenlər buraxırıq, burada statistika və həm pozuntular, həm də müsbət davranışlar barədə nümunələr verilir.

Bütün podratçılarımızdan və onların əməkdaşlarından kodeksimizə uyğun işləmələrini gözləyirik və onları buna təşviq edirik. İşgüzar tərəfdaşlarımızla gözləntilərimiz barədə açıq danışmağa çalışırıq, uyğun olduqda müqavilə öhdəliklərini razılaşdırırıq və hesab etdikdə ki, onlar gözləntilərimizi və ya müqavilə öhdəliklərini doğrultmurlar, müvafiq tədbirlər görürük.

2015-ci ildə gözləntilərimiz haqqında və qeyri-etik davranışın nə ilə nəticələnməsi barədə işgüzar tərəfdaşlarımızın məlumatlılığının artırılmasına diqqət yönəltməyə davam etdik. 50-dən çox təchizatçı şirkətin yüksək vəzifəli rəhbərləri üçün etik normalar və qaydalara uyğunluq üzrə təlimlər təşkil etdik.

## Sözü azad demək mədəniyyəti və intizam tədbiri

Əməkdaşları, podratçıları və digər üçüncü tərəfləri davranış kodeksimizə əməl olunmaması ilə bağlı narahatlıqları və ya sadəcə, hər hansı vəziyyətlə bağlı şübhələri varsa, sözlərini açıq deməyə təşviq edirik. Kodeksimizin və ya hüquqi tələblərin pozulması və ya potensial pozulması barədə xəbəri olan əməkdaşlar bu barədə birbaşa məlumat verməlidirlər.

BP-nin "OpenTalk" (açıq söhbət) qlobal yardım xətti həm əməkdaşların, həm də üçüncü tərəflərin narahatlıq doğuran məsələləri qaldırması üçün məxfi vasitədir. Müstəqil bir şirkət tərəfindən idarə olunan bu yardım xətti həftənin hər günü, gündüz və gecə saatlarında istənilən vaxt işləyir və 75-dən artıq dildə zəngləri qəbul edir. "OpenTalk" vasitəsilə qaldırılan məsələlər qiymətləndirmə və müvafiq tədbirlərin görülməsi üçün təqdim edilir.

**50**

50-dən çox təchizatçı şirkətin yüksək vəzifəli rəhbərləri üçün etik normalar və qaydalara uyğunluq üzrə təlimlər təşkil etdik.

Sözü azad şəkildə demək mədəniyyətimizin gücləndirilməsi üçün imkanlar axtarırıq. Məsələn, müəyyən etdik ki, Azərbaycanda, Gürcüstanda və Türkiyədə işçilərimiz tərəfindən qaldırılan narahatlıq doğuran məsələlər gözlədiyimizdən azdır. Araşdırma nəticəsində məlum oldu ki, işçilər narahatlıq bildirmək üçün mümkün kanallar barədə məlumatlı və ya bu kanallardan istifadə etməyə həvəsli deyillər.

Bu məsələni həll etmək üçün biz əməkdaşlarımıza, podratçılarımıza və təchizatçılarımıza 100-dən artıq təlim keçdik. Bu təlim sessiyaları etik davranışın əhəmiyyətini gücləndirdi, narahatlıq doğuran məsələləri necə qaldırmaq izah edildi və qisasçılığa qarşı sıfır dözümlülük siyasətimizin mahiyyəti aydınlaşdırıldı. Proqram 2013-cü ildə həyata keçirilməyə başlayandan etibarən narahatlıqla bağlı qaldırılan məsələlərin sayı 37-dən 2015-ci ildə 58-ə yüksəldi.

Azərbaycan, Gürcüstan və Türkiyədə normalara əməl etməmə ilə bağlı araşdırmalar nəticəsində 2015-ci il ərzində intizam tədbiri ilə nəticələnən 42 hadisə məlum oldu, o cümlədən bir sıra BP əməkdaşına yazılı iltizam verildi və bir neçəsi işdən azad edildi. Qrup rəhbərləri üçün təlimlər təşkil etməyi və Etik Davranış Kodeksimizlə bağlı gözləntilərimizə dair məlumatlılıq səviyyəsini yüksəltməyi davam etdirməyi planlaşdırırıq.

**Azərbaycanda araşdırılmış intizam pozuntuları** (davranış kodeksinin fəsli üzrə)



# Əməyin təhlükəsizliyi



Əməliyyatların təhlükəsiz, etibarlı və tələblərə uyğun qaydada davam etdirilməsini diqqət mərkəzində saxlayır, əməyin təhlükəsizliyi və əməliyyat risklərinin idarə olunmasını bütün işlərimizdə rəhbər tuturuq.

İşçilər Şahdəniz platformasında xüsusi qoruyucu geyimdə qazma işi görürlər.

# Əməyin təhlükəsizliyinin idarə edilməsi

Əməyin təhlükəsizliyi bizim üçün ən prioritet məsələdir. O, rəhbərlik tərəfindən dəstəklənir və əməliyyatların idarə olunması sistemimiz vasitəsilə tətbiq edilir.

## Yerli şirkətlər üçün əməyin təhlükəsizliyi üzrə təlim

BP özünün və tərəfdaşlarının maliyyə dəstəyi göstərdiyi sahibkarlığın inkişafı və təlim proqramında iştirak edən 20-dən artıq yerli şirkət üçün əməyin təhlükəsizliyi üzrə təlim kursu təşkil etdi.

Kurs zamanı BP-nin əməyin təhlükəsizliyi və ətraf mühitlə bağlı gözləntilərinin ümumi mənzərəsi təsvir edildi, tədbirdə yüksək və orta vəzifəli rəhbərlik, mühəndis-layihə, nəqliyyat, tikinti, qazma, quraşdırma, informasiya texnologiyaları və digər biznes sahələrinin sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit sahəsində çalışan nümayəndələri yaxından iştirak etdilər. İştirakçıların rəyləri çox müsbət oldu və bəziləri əldə etdikləri bilikləri öz şirkətlərinə səriştə və qabiliyyətləri artırmaq üçün tətbiq etmək niyyətində olduqlarını bildirdilər.



Kran operatoru Qərbi Azəri platformasında yükqaldırma işi icra edir.

Təhlükəsiz və sağlam iş mühitinin yaradılması uğurumuzun təməlidir. İstər sahələrimizdə işləyən əməkdaşlarımızın, istərsə də əməliyyatlarımızın qonşuluğundakı icmalarda yaşayan insanların təhlükəsizliyini təmin etmək öhdəliyimiz var.

## Əməliyyatların idarə edilməsi sistemi

Bizim əməliyyatların idarə edilməsi sistemimiz (ƏİES) əməliyyat fəaliyyətlərimizdə riskləri idarə etməyə və iş icrasını təkmilləşdiməyə kömək etmək üçün hazırlanmış qrup miqyaslı konsepsiyadır.

ƏİES sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühit, korporativ məsuliyyət və əməliyyatların etibarlılığı, eləcə də texniki xidmət, podratçılarla əlaqələr və təşkilatdaxili təlimlər kimi əlaqədar məsələlərə dair BP-nin tələblərini ümumi idarəetmə sistemində birləşdirir. Bu sistem təftiş, yoxlama, səriştələrin inkişaf etdirilməsi, biznesin davamlılığı və böhran hallarına qarşı cavab tədbirlərinin planlaşdırılması kimi fəaliyyətlərin əsas risklərini idarə edən qayda və prinsipləri müəyyənləşdirir.

Biz BP-nin prioritetlərini və ya dəyişkən kənar tənzimləyici normaları əhatə etmək üçün vaxtaşırı olaraq ƏİES çərçivəsində qrupumuzun tələblərini nəzərdən keçirir və təkmilləşdiririk. ƏİES-nin tətbiqində hər hansı dəyişiklik – yerli tənzimləyici normalara və ya şərtlərə əməl etmək məqsədilə – idarəetmə prosesinə aid edilir.

ƏİES həmçinin bizə əməliyyat fəaliyyətlərimizin keyfiyyətini yaxşılaşdırmaqda da kömək edir. ƏİES ilə əhatə olunan bütün biznes sahələri hər il iş icrasının təkmilləşdirilməsi dövrünü həyata keçirir və ƏİES çərçivəsinin müvafiq tələblərinə riayət olunması ilə bağlı qiymətləndirmə aparır.

## Əməyin təhlükəsizliyi üzrə göstəricilər

### Əməliyyatların təhlükəsizliyinin təkmilləşdirilməsi

2015-ci ildə ümumilikdə sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ya ətraf mühit ilə bağlı qəza və təhlükəli hallar kimi səkkiz yüksək potensiallı hadisə baş verib.Bunlardan beşi dəniz obyektlərimizdə baş verib. Hadisələrin hamısı araşdırılıb, təcrübədən çıxarılmış dərslər barədə hesabat hazırlanıb və paylaşılıb.

İlkin hermetikliyin pozulması hallarının sayı azalaraq 2015-ci ildə altı insident oldu (2014-cü ildə səkkiz olmuşdu).

Meksika körfəzindəki dərin sularda baş vermiş hadisə üzrə tədqiqatda, Blay hesabatında qlobal qazma əməliyyatlarımızda riskin daha da azaldılması məqsədi daşıyan 26 tövsiyə verilmişdi. Biz 26 tövsiyənin hamısının yerinə yetirilməsini başa çatdırdıq. Bunu etməklə quyuda fontanın qarşısını alan preventor qurğusunun etibarlılığının artırılması, quyuya nəzarət, quyunun bütövlüyü və sementlənməsi, yoxlama və riskin idarə edilməsi, qazma səriştələri və təlim fəaliyyətlərini genişləndirdik.

Bu proqram həm BP daxilində, həm də xidmət təchizatçılarımız və podratçılarımıza yeni standartların aşılanması və mövcud standartların genişləndirilməsi, yüzlərlə auditin aparılması, dünyanın hər yerində qazma ərazilərimizə sahə səfərləri, 130-dan artıq seminarda 3000-dən çox adama təlim keçilməsi kimi əhəmiyyətli həcmdə işləri əhatə etdi.

**BP-nin Azərbaycanda əməyin təhlükəsizliyi üzrə göstəriciləri[a]**

| | 2014 | **2015** |
|---|---|---|
| Ölüm halları | 0 | **0** |
| İş gününün itirilməsi hadisələrinin tezliyi[b] | 0,00 | **0,01** |
| Qeydiyyata alınan xəsarətlərin tezliyi[c] | 0,09 | **0,08** |
| Yol-nəqliyyat qəzalarının ümumi səviyyəsi[d] | 0,83 | **0,48** |
| Qət edilmiş kilometrlər (milyon) | 24,24 | **27,32** |
| İşlənilmiş saatlar (milyon) | 32,18 | **43,64** |

[a] Bu cədvəl BP əməkdaşları və podratçılar üzrə məlumatları əks etdirir. BP-də xəsarət və xəstəliyə verilmiş təriflər ABŞ Peşə Sağlamlığı və Əməyin Təhlükəsizliyi İdarəsi tərəfindən müəyyənləşdirilmiş təriflərdən və bu təriflərin müvafiq şərhlərindən götürülüb. Buraya sırf layihələrə dair məlumatlar daxil deyil. Tezlik göstəriciləri hər 200 000 iş saatına uyğun hesablanıb.
[b] İş gününün itirilməsi hadisəsi işlə bağlı xəsarət və ya xəstəlik nəticəsində həmin şəxsin iş qabiliyyətini itirməsinə və bu cür hadisənin baş verdiyi gündən sonrakı ən azı bir normal iş növbəsinə çıxa bilməməsinə səbəb olan hadisə deməkdir.
[c] Qeydiyyata alınan xəsarət ilk tibbi yardımdan əlavə müalicə tələb edən işlə bağlı məruzə edilmiş bütün xəsarət hallarıdır.
[d] Yol-nəqliyyat qəzalarının ümumi səviyyəsi nəqliyyat vasitəsilə qət edilmiş hər milyon kilometr məsafəyə düşən məruzə edilmiş yol-nəqliyyat qəzalarının sayıdır.




Biz tərəfdaşlarımızla əməyin təhlükəsizliyinə uyğunluğu gücləndirmək istiqamətində işlər aparmışıq.

**İş gününün itirilməsi hadisələrinin tezliyi**
(işlənilmiş hər 200 000 saat üzrə)




**Qeydiyyata alınan xəsarətlərin tezliyi**
(işlənmiş hər 200 000 saat üçün)




APİ - Amerika Neft İnstitutu
OGP - Beynəlxalq Neft və Qaz İstehsalçıları Assosiasiyası

### Sağlamlıq və fərdi təhlükəsizlik

2015-ci ildə qeydiyyata alınan xəsarət tezliyi 0,08-ə düşdü (2014-cü ildə 0,09).

Qurudakı və dənizdəki əməliyyatlarımızda müxtəlif peşə sağlamlığı və ilkin tibbi yardım bacarıqları, səhiyyə, peyvənd və təşviqat işlərini həyata keçiririk. 2015-ci ildə BP-nin işçi heyəti üçün Gəncə MediClub klinikasında xidməti səhiyyə bölməsini açdıq. Bu klinika Azərbaycanın qərb rayonlarında çalışan işçilərin işə yararlı olub-olmadığının qiymətləndirilməsini və müayinəsini həyata keçirir, onların müayinə üçün Bakıya gəlməsinə ehtiyacı aradan qaldırır.

### Nəqliyyat vasitələrinin təhlükəsiz idarə edilməsi

2015-ci ildə nəqliyyat vasitələrindən istifadə 13%-dək artdı, il ərzində 27 milyon kilometr (podratçılar da nəzərə alındıqda 58 milyon kilometr) məsafə qət edildi. Yol-nəqliyyat qəzalarının ümumi səviyyəsi isə 42% azaldı.

Sahələrin və podratçıların nəqliyyat vasitələrinin təhlükəsiz idarə olunması standartlarının tələblərinə riayət edilməsi ilə bağlı audit aparmaqla sağlamlığa və əməyin təhlükəsizliyinə təminatı gücləndirmək planımızı həyata keçirməyə davam etdik.

## Audit və yoxlamalar

BP qrupu səviyyəsində audit və yoxlama bizə işçi qüvvəmizin rifahını, ətraf mühiti və yerli icmaları qorumaq üçün əməliyyatlarımızın təhlükəsizliyini və etibarlılığını prioritetləşdirməyə kömək edir.

BP qrupu 2015-ci ildə BP-nin Azərbaycandakı əməliyyatlarının iki dəfə auditini keçirdi. Bu auditlərə qurudakı boru kəməri əməliyyatları, eləcə də Azərbaycandakı və Gürcüstandakı dəniz əməliyyatları üzrə riskin idarə olunması fəaliyyətləri daxil idi. Dəniz Əməliyyatları Qrupu auditinin nəticəsi olaraq 14, qrup auditi fəaliyyəti və Boru Kəmərlərinin Təsdiqlənməsi üzrə Qrup auditin nəticəsi olaraq isə 18 fəaliyyət qeydə alındı. Biz bu fəaliyyətləri başa çatdırmaq üzərində işləyirik.

BP qrupu həmçinin Mərkəzi Azəri, Şərqi Azəri və Şahdəniz platformalarında, eləcə də "Heydər Əliyev" və "Dədə Qorqud" qazma qurğularında qazma qurğusunun auditini keçirdi. Bu auditlər nəticəsində 201 fəaliyyət qeydə alındı ki, onlardan 117-si 2015-ci il ərzində icra olunub.

2015-ci ilin sonuna qədər 2014-cü ildə öz əməliyyat təşkilatımızın qrup auditi nəticəsində tələb olunan fəaliyyətlərin 82%-ni uğurla başa çatdırdıq. 757 fəaliyyətdən üçü qalıb ki, onlar da 2016-2020-ci illərdə icra edilməlidir.

2015-ci ilin sonuna əməliyyatların idarə edilməsi sisteminin quyular üzrə təşkilatımızda apardığı qrup auditi nəticəsində 2014-cü ildə irəli sürülmüş fəaliyyətlərin 75%-ni təxirə salmadan və gecikdirmədən uğurla başa çatdırdıq.

## Mexaniki bütövlüyün idarə edilməsi

2015-ci il ərzində obyektlərimizdə çoxlu sayda təftiş apardıq.

Səngəçal terminalı və ixrac əməliyyatları üzrə avadanlıq və boru kəmərinin təzyiq sisteminin 1300-ə yaxın təftişini keçirdik. Konstruksiyaların, dayaqların və beton özüllərin 200-dən artıq struktur/inşaat təftişini başa çatdırdıq. Bundan əlavə, Azərbaycanda və Gürcüstanda boru kəmərlərinin 180-dən artıq təftişini tamamladıq. İl ərzində midstrim obyektlərimiz üçün korroziyadan mühafizə araşdırmalarımızı və modernləşdirmə işlərini yekunlaşdırdıq. Biz maye axını, qurğunun və infrastrukturun, eləcə də ixrac məhsullarının keyfiyyətinə zəmanət yaratmaq üçün kimyəvi maddələr ərazisinin mühafizəsinə il ərzində 70000 adam-saat sərf etdik.

İlin sonuna dəniz obyektlərimizdə, Azəri və Çıraq platformalarındakı əsas karbohidrogen tutumlarında 20-dən artıq daxili təftiş etdik. Planlaşdırıldığı kimi, yeddi platformamızın hamısında korroziyanın idarə edilməsi və konstruksiyaya texniki xidmət proqramlarımızı həyata keçirdik. Bundan əlavə, Azəri və Çıraq platformalarının müxtəlif konstruksiyalarında məsafədən idarə olunan sualtı aparatla təftiş apardıq.



Bir qrup işçi gəminin göyərtəsində fövqəladə hallara qarşı cavab tədbirləri təlimi keçir.

## Təhlükəsizlik və böhran hallarının idarə edilməsi

Biznesimiz üçün potensial təhlükələri əvvəlcədən görməyə çalışmaq, baş verə biləcək böhran və ya hadisəyə hazır olmaq üçün müvafiq proseslərimiz var.

Şirkət olaraq bizim kollektiv məsuliyyətimiz zəmanət və aydın təhlükəsizlik strukturunu təmin etmək, fərqli biznes mühitlərində təhlükəsizlik baxımından narahatlıq doğuran məsələləri idarə etmək, BP-nin əməliyyatçısı olduğu obyektləri mühafizə etməkdir. Azərbaycanda BP-nin işlədiyi həm qurudakı, həm də dənizdəki ərazilərinin xarici perimetr boyunca mühafizəsini dövlət təhlükəsizlik orqanları həyata keçirir.

2015-ci ildə təhlükəsizlik sahəsində tərəfdaşlarımızla əməliyyatlarımızın və obyektlərimizin təhlükəsizliyinə və bütövlüyünə təminatın mühüm tərkib hissəsi olan əməkdaşlığı davam etdirdik. Əməliyyatlarımızın mühafizəsində dövlət tərəfdaşımız olan Neft və Qaz Boru Kəmərlərinin Təhlükəsizliyi İdarəsi (NQBKTİ) ilə İxrac Boru Kəmərləri üzrə Təhlükəsizlik Komissiyasının İllik Forumunu təşkil edərək tədbirə ev sahibliyi etdik. Forumda nazirliklərinin nümayəndələri və ixrac boru kəmərlərinin keçdiyi rayonların icra orqanlarının məsul şəxsləri iştirak etdilər. Məqsəd obyektlərin mühafizəsi ilə bağlı təhlükəsizlik və əməyin təhlükəsizliyi, ictimaiyyətlə əlaqələrə dair cari məsələləri, eləcə də Şahdəniz 2 layihəsinin genişləndirmə işlərinin təhlükəsizlik aspektlərini müzakirə etmək, təhlükəsizlik və icmalar üzrə maraqlı tərəflər arasında ən yaxşı təcrübələri bölüşmək idi.

BP NQBKTİ-yə ikinci xüsusi mobil post-patrul nəqliyyat vasitəsi olan “KAMAZ” maşını almağa dəstək göstərdi. Bu maşın çətin hava şərtləri və yol olmayan ərazilər üçün yenidən dizayn olunaraq təkmilləşdirilib. Ümumilikdə, 2015-ci ildə bu maşın boru kəmərləri boyunca müxtəlif məntəqələrdə 37 gün ərzində 888 iş saatı həcmində xidmət göstərdi.

### Böhranların idarə edilməsi və fövqəladə hallarda cavab tədbirləri

Böhran hallarının və davamlılığın idarə olunmasını planlamamız əməkdaşlarımızın təhlükəsizliyini təmin etmək, fövqəladə hallara qarşı təsirli tədbirlər görmək və əməliyyatlarımızda potensial ciddi fasilələrin qarşısını almaqda kömək edir. BP Azərbaycan, Gürcüstan və Türkiyə boyunca hər il böhran halları və davamlılıq üzrə potensial riskləri müəyyənləşdirir, öz komandalarımızın cavab tədbirlərinə hazırlığını yoxlamaq üçün müntəzəm təlim məşqləri keçirir. 2015-ci ildə obyektlərimizin hər hansı hadisəyə qarşı cavab tədbiri görməyə hazırlığını yoxlamaq üçün 400-dən artıq təlim və məşq keçirdik.

2015-ci ildə Dənizdə Neft Dağılmalarına qarşı Fövqəladə Fəaliyyət Planımızı Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırdıq.

Azərbaycanda BP-nin neft dağılmalarına qarşı hazırlıq və cavab tədbiri görmək potensialını genişləndirmək üçün 18 aylıq proqramını başa çatdırdıq. Bu proqramın bir hissəsi olaraq Azərbaycanın hər yerində tədbir görmək üçün yanğın əleyhinə bonlar, dispersant çiləmə sistemləri, müvəqqəti suüstü neft tutumu, qayıqlar və təmizləmə aparatları və sığınacaqlar, eləcə də yük maşınları və avadanlığın təhlükəsiz şəkildə, sürətlə daşınmasına yardım edən tırtıllı avtomobillər kimi əlavə avadanlıq təchizatını artırmaq məqsədilə əhəmiyyətli miqdarda yeni avadanlıq aldıq. Qiymətləndirməmizə görə, aldığımız avadanlıq dənizdə və quruda neftin mexaniki yığılması və saxlanılması üçün hazırda istifadədə olan ən effektli avadanlıqdır.

Bu proqramın başa çatdırılması “BP Azərbaycan” şirkətinin BP qrupunun neft dağılmalarına qarşı yenilənmiş hazırlıq və cavab tədbirləri prosedurlarına uyğunlaşmasını təmin edir. Bu prosedurlar BP biznesindən neft dağılması ilə bağlı ən pis ssenari üzrə cavab tədbiri görə bilmək üçün müvafiq potensiala malik olmağı tələb edir.

### Hökumətlə iş

2015-ci il ərzində Fövqəladə Hallar Nazirliyi ilə əməkdaşlığımızı daha da gücləndirdik. Nazirliyin nümayəndələri BP-nin həm göyərtədə, həm də sahədə neft dağılması təlimində, BP nümayəndələri isə nazirliyin təşkil etdiyi irimiqyaslı fövqəladə hallara cavab tədbiri üzrə təlim məşqində iştirak etdilər. Bundan əlavə, BP Fövqəladə Hallar Nazirliyinin yaranmasının 10-illik yubileyini qeyd etmək üçün nazirlik tərəfindən təşkil olunan neft dağılmalarına qarşı hazırlıq və cavab tədbirləri mövzusunda konfransda iştirak etdi.

# Ətraf mühit




Biz başa düşürük ki, ətraf mühitə təsirlərin idarə olunması neft və qazın məsuliyyətli şəkildə hasil olunması prosesinin mühüm tərkib hissəsidir.

BP-nin Azərbaycanda operatorluq etdiyi dənizdəki və qurudakı obyektlərinin yaxınlığında ətraf mühitin monitorinqi proqramını həyata keçiririk. 2004-2015-ci illər ərzində umumilikdə 191 monitorinq tədqiqatı başa çatdırılıb.

# Ətraf mühit üzrə göstəricilər

BP fəaliyyət göstərdiyi yerlərdə ətraf mühitə təsir göstərməmək, təsirləri minimuma endirmək və azaltmaq istiqamətində işləyir.

## Qazın məşəldə yandırılmasının azaldılması üzrə mükəmməllik mükafatı

BP Azərbaycan və SOCAR 2015-ci ildə AÇG qazının məşəldə yandırılmasının azaldılması layihəsinə görə Qazın Məşəldə Yandırılmasının Azaldılması üzrə Qlobal Tərəfdaşlığın mükəmməllik mükafatına layiq görüldü. 2015-ci ildə BP Azərbaycan ilə SOCAR-ın əməkdaşlığı məşəldə yandırılan qazın 4%-dən 2%-ə enməsi ilə nəticələndi. Bu azalmaya səbəb olan fəaliyyətlərə enerji ehtiyatlarından daha səmərəli istifadə və istehlakçıların enerjidən istifadə imkanının yaxşılaşdırılması daxildir.



Bu il BP-nin Azərbaycandakı əməliyyatlarının İSO 14001 sertifikatı almasının 15-illik yubileyi ilə əlamətdar oldu. Müntəzəm keçirilən nəzarət auditləri Mərkəzi Azəri platformasını, Qərb İxrac Boru Kəmərini, Şelf Layihə Tikinti sahəsindəki Mərkəzi Tullantı Toplama Sahəsini və Sərəncə Təhlükəli Tullantıların İstismar Obyektini (TTİO) əhatə etdi. Sertifikatı yeniləmək üçün Şahdəniz və Dərinsulu Günəşli platfromalarını, Qabaqcıl Mayelər Obyektini, Səngəçal Mərkəzi Tullantı Toplama Sahəsini, DənizsuyuTəmizləmə Zavodu və həmçinin BP-nin yarımdalma qazma qurğularından istifadəni əhatə edən üçillik audit nəticəsində oktyabr ayında əməliyyatlarımız üçün İSO 14001 sertifikatını yenidən aldıq.

## Atmosferə emissiyalar

İstixana qazı (İXQ) emissiyalarımız daxili yanma mühərrikləri, yanacağın isitmə qurğularında yandırılması və çıxarıla bilməyən qazın məşəldə yandırılması nəticəsində əmələ gəlir.

Biz emissiyalarımızı enerjidən səmərəli istifadə etməklə, qazın məşəldə yandırılmasını azaltmaqla və yeni layihələr tərtib etməklə idarə edirik.

2015-ci ildə havaya təxminən 3,4 milyon ton İXQ buraxmışıq ki, bu da 2014-cü ildəki göstərici ilə müqayisədə 16,4% azdır. Azalmanın başlıca səbəbi Çıraq-1 və Qərbi Çıraq platformalarında qazın məşəldə yandırılmasının azaldılması oldu. İXQ-nin yaranmasında ən çox Mərkəzi Azəri platformasının (22%), Səngəçal terminalının AÇG hissəsinin (21%) və Dərinsulu Günəşli platformasının (19%) payı var.

2015-ci ildə obyektlərimizdə qazın məşəldə yandırılmasında əsaslı azalmaya nail olduq. Bu azalmaya (2014-cü ildəki 413 min tondan 2015-ci ildə 203,65 min tona) başlıca səbəb Qərbi Çıraq platformasının istismara verilməsinin tamamlanması oldu.

NOx və SOx emissiyalarımızın da ildən-ilə müvafiq olaraq 1,9% və 3,1% azaldığını müşahidə etdik.

## Neft dağılmaları

Neft dağılmaları baş verəcəyi təqdirdə ona nəzarət etmə, lokallaşdırma və təmizləmə yollarını davamlı olaraq inkişaf etdiririk. Əsas prioritetimizin neft dağılmalarının qarşısını almaq olmasına baxmayaraq onlar hələ də baş verir. Biz neft dağılmalarına qarşı cavab tədbirlərimizi inkişaf etdirmək üçün addımlar atırıq. Bura texnologiyadan istifadə etməklə simulyasiya təlimləri keçirərək cavab vermə bacarığımızı yaxşılaşdırmaq və neft dağılmalarına qarşı cavab tədbirləri planlarımızın yenilənməsi daxildir.

2015-ci ildə neft dağılması hallarının daha da azaldığının şahidi olduq. İki hadisəmiz oldu, hər ikisi Mərkəzi Azəri platformasında – bir halda platforma göyərtisinə 250 litr neft və su dağıldı ki, bunun yalnız 10 litri açıq ətraf mühitə çatdı; ikinci halda 795 litr neft əsaslı qazma məhlulu dənizə buraxıldı.

### Hər obyekt üzrə ümumi qazın məşəldə yandırılması (min ton)




Həcmləri yuxarıdakılara nisbətən az olduğundan bu platformaların məşəldə yandırılma göstəriciləri cədvələ daxil edilməyib: "İstiqlal" qazma qurğusunda 2012-ci il üzrə 1100 ton, "Heydər Əliyev" qazma qurğusunda 2013-cü il üzrə 1200 ton. Şahdəniz platformasında məşəldə yandırılma olmayıb.

### Xalis İXQ emissiyaları




### Ümumi qeyri-istixana qazı emissiyaları (ton)




### Enerji istehlakı

| | 2013 | 2014 | 2015 |
|---|---|---|---|
| Yanacaq qazı (min ton) | 800,4 | 949,7 | **957** |
| Dizel yanacağı (min ton) | 65,8 | 83,0 | **83,3** |
| Elektrik enerjisinin idxalı (meqavat saat) | 8 074 | 6 821 | **10 167** |

### Əmələ gəlmiş tullantılar (ton)

| | 2013 | 2014 | 2015 |
|---|---|---|---|
| Təhlükəli tullantılar (çirkab suları istisna olmaqla) | 94 958 | 314 462 | **81 314** |
| Təhlükəsiz tullantılar | 15 216 | 13 535 | **18 650** |

# Tullantıların idarə olunması

Biz əməliyyatlarımızda tullantıların əmələ gəlməsini aradan qaldırmaq, onları azaltmaq və təkrar istifadə etmək məqsədilə tullantıların idarə edilməsində bütün layihə dövrünü əhatə edən yanaşma qəbul etmişik.

"BP Azərbaycan" şirkətinin 2015-ci ildəki fəaliyyətində ümumilikdə 100000 tona yaxın təhlükəli və təhlükəsiz tullantı əmələ gəlib. Təhlükəli tullantıların həcminin dörd dəfə azalması podratçı tərəfindən qurudakı lay suyunun utilizasiyasının dayandırılması və qazma məhlulları tullantılarının əhəmiyyətli şəkildə azalması nəticəsində baş verdi.

2015-ci ildə həm təhlükəli tullantıların (44031 ton), həm də təhlükəsiz tullantıların (10036 ton) 54%-i təkrar emal və ya istifadə olunub. Kağız, taxta, plastik materiallar və neftli su təkrar emal etdiyimiz əsas tullantılardır.

Qazma şlamlarının 48553 tonu Sərəncədəki təhlükəli tullantıların idarə edilməsi obyektində emal edilib. Nəticədə qazma məhlulunun əsasını təşkil edən 8818 ton həcmində maye karbohidrogen regenerasiya edilib ki, bunun da 3705 tonu qazma məhlulu hazırlamaq üçün təkrar istifadə olunub, 1738 tonu isə neft ixrac boru kəmərlərinə vurulub.

Sərəncədəki təhlükəli tullantıların idarə edilməsi obyektində illər boyunca yığılmış təhlükəli tullantıları oradan aparmaq üçün səylərimizi davam etdirdik. İl ərzində 100000 tondan çox tullantı yeni təsdiq edilmiş utilizasiya yolları sayəsində sahədən kənarda utilizasiya edildi.

## Qazma şlamları

2015-ci ildə qazma şlamlarının idarə edilməsində böyük dəyişikliklər oldu. AÇG yatağında yenidən laya vurma quyularına şlamların vurulmasını iki dəfədən çox artıraraq 20000 tondan yuxarıya çatdırdıq.

Şlamların dənizdən quruya daşınması 72% artaraq 53875 tona çatdırıldı; bu həcm Sərəncədəki təhlükəli tullantıların idarə edilməsi obyektinə gətirildi.

Bunun nəticəsində dənizə icazə verilən atqı yarıbayarı azalaraq 16970 tona endi. Xüsusi tələblərə cavab verən dənizə atqı Çıraq platformasından sintetik əsaslı qazma məhlulu (SiQM), eləcə də bütün digər platformalardan və səyyar qazma qurğularından su əsaslı qazma məhlulu (SuQM) üçün nəzərdə tutulub.

## Çirkab suları

2015-ci ildə çirkab sularının təmizlənməsi qurğusunun işləməməsi hallarını daha da azaltdıq (2014-cü ildə 12, 2015-də 4) ki, bunun nəticəsində təmizlənməmiş çirkab sularının dənizə atqısı azaldı. Qurğunun dayandırılması səbəbindən təmizlənməmiş çirkab su atqısının həcmi əhəmiyyətli şəkildə azalaraq 2014-cü ildəki 204 m3-dən 16 m3-ə endi.

Biz müntəzəm olaraq çirkab sularının təmizlənməsi qurğusunun fəaliyyətinin və təmizlənmiş suyun keyfiyyətinin monitorinqini və analizini aparırıq. Əksər dəniz platformalarında bağırsaq çöpü bakteriyaları üzrə nəticələr müəyyən edilmiş normanı keçib. Şahdəniz platformasında asılı bərk hissəciklərin ümumi miqdarı və oksigenə bioloji tələbat normadan artıq olub. Monitorinqlərin keçirilməsi tezliyini artırmışıq və səbəblərin təhlili davam edir.

Səngəçal terminalında təmizlənmiş çirkab sularının monitorinqinin nəticələri yanvar-may aylarında və noyabr ayında tələb olunan bəzi parametrlərə uyğun olmayıb və sonradan həll olunub. İxrac boru kəmərləri boyunca biotəmizləmə nohurlarında bağırsaq çöpü parametrlərinin yüksəlməsi ilə bağlı problem 2015-ci ildə davam etdi. Nohurların ərazisi boyunca suyun keyfiyyətinin qiymətləndirilməsini davam etdirdik.

## Hasil edilmiş lay suyu

Bizim əməliyyatlarımız, misal üçün gəmiləri və ya boru kəmərlərini yoxlamaq üçün istifadə edilən sudan yaranan, ya da suyun soyudulması nəticəsində meydana gələn tullantı suların mühüm həcmlərini idarə edir. Biz həmçinin, karbohidrogenlərin hasilatı zamanı suyun üzünə çıxan hasil edilmiş lay suyunu da idarə edirik.

AÇG yatağında lay suyunun həcmi artmaqda davam etdi və əksəriyyəti quruya nəql edildi. Dənizə lay suyu atqılarının həcmi il ərzində 72% azalaraq 22506 tona düşdü. Buna bir sıra sızan klapanların təmir edilməsi sayəsində nail olduq.

Səngəçal terminalında təmizləndikdən və separasiya edildikdən sonra təxminən 4800800 ton lay suyu yenidən laya vurulmaq üçün dənizə qaytarıldı. AÇG-də hasil edilmiş lay suyunun ümumilikdə 5539006 tonu və ya 99,6%-i yenidən laya vuruldu.

Qalan 3500 ton isə sınaq təmizlənmə üçün üçüncü tərəflərə aid iki təmizləyici qurğuya göndərildi.

2015-ci ilin sonunda Dərinsulu Günəşli platforması dənizdə hasil edilmiş lay suyunun separasiyasına başladı və Şərqi Azəri platformasından bir il sonra bu texnologiyadan istifadə edən ikinci platforma oldu. Bu texnologiya sahilə göndərilən neftin tərkibindəki suyun kəmiyyətini azaltmağa səbəb oldu. 2015-ci ildə ümumilikdə Şərqi Azəri platformasında 666089 ton, Dərinsulu Günəşli platformasında isə 94810 ton lay suyu separasiya edildi.

Şahdəniz yatağından hasil edilmiş lay suyu həcmləri AÇG-də olduğundan xeyli azdır. 2015-ci ildə 28512 ton separasiya edilərək Səngəçal terminalındakı xüsusi saxlama nohurlarına vuruldu ki, bu da 2014-cü il ilə müqayisədə 8% azdır.



İşçilər BP-nin Qabaqcıl Mayelər Obyektinin nəzarət otağında iş prosesini yaxından izləyirlər.

**Əməliyyatlar zamanı suya atılmış qazma şlamları**
(ton)

| Yataq / qurğu | SuQM-li qazma şlamları | SiQM-li qazma şlamları | Cəmi |
|---|---|---|---|
| Çıraq-1 | 0 | 2 752,8 | 2 752,8 |
| Mərkəzi Azəri | 1114,9 | 0 | 1114,9 |
| Qərbi Azəri | 228,9 | 0 | 228,9 |
| Şərqi Azəri | 217,5 | 0 | 217,5 |
| Dərinsulu Günəşli və Qərbi Çıraq | 0 | 0 | 0 |
| Şahdəniz | 284 | 0 | 284 |
| "Dədə Qorqud" qazma qurğusu | 0 | 0 | 0 |
| "İstiqlal" qazma qurğusu | 12 371,4 | 0 | 12 371,4 |
| "Heydər Əliyev" qazma qurğusu | 0 | 0 | 0 |
| **Cəmi** | **14,216.7** | **2,752.8** | **16,969.5** |

Ətraf mühit

# Ətraf mühitin monitorinqi

Uzun illərdir ki, ətraf mühit üzrə tədqiqatlar fəaliyyətlərimizin yerli ətraf mühitlərə göstərdiyi təsirləri müəyyənləşdirmək və başa düşməkdə bizə kömək edir.





Solda: Səngəçal terminalı ətrafında torpağın və bitkilərin tədqiqatı aparılır.
Sağda: Ətraf mühit mütəxəssisləri sahilə yaxın ərazidə tədqiqat aparırlar.

BP-nin Azərbaycanda operatorluq etdiyi dəniz və quru obyektləri yaxınlığında atmosferin monitorinqi proqramını həyata keçiririk. 2004-2015-ci illər ərzində ümumilikdə 191 monitorinq tədqiqatı başa çatdırılıb. Bura 2015-ci ildə aparılmış 20 ətraf mühit tədqiqatı da daxildir, onlardan 12-si quruda, beşi dənizdə, üçü isə sahil yaxınlığında aparılıb.

## Dənizdə və sahilyanı ərazidə tədqiqatlar

2015-ci ildə Çıraq, Qərbi Azəri, Dərinsulu Günəşli və Şahdəniz Alfa platformalarının yaxınlığında dəniz dibinin dörd monitorinqini keçirdik. Şahdəniz müqavilə sahəsində bentik, su və plankton tədqiqatları apardıq.

Planlaşdırılmış seysmik tədqiqatdan öncə Abşeron yarımadasının dayazsulu hissəsi (AYDH) üzrə yeni müqavilə sahəsində sahilə yaxın ərazinin ətraf mühitinin ilkin vəziyyəti tədqiq edildi.

Səngəçal buxtasında sahilə yaxın ərazidə ətraf mühitlə bağlı iki tədqiqat aparıldı;

- Buxtanın sahilə yaxın ətraf mühitinin vəziyyəti su və çöküntünün kimyəvi analizi və bioloji (makrofauna və plankton) təsviri vasitəsilə qiymətləndirildi.
- Səngəçal terminalının Şahdəniz 2 tikintisinə aid ərazidə məskunlaşmış balıq populyasiyasının sağlamlığının vəziyyəti tədqiq edildi. Məqsəd xəndəklərin qazılması əməliyyatlarının balıqlara hər hansı təsirinin olub-olmadığını başa düşmək idi.

## Quruda tədqiqatlar

2015-ci ildə quruda aparılmış 12 tədqiqatdan altısı Səngəçal terminalını, dördü ixrac boru kəmərlərini, ikisi isə Sərəncədəki təhlükəli tullantıların idarə edilməsi obyektini (TTİEO) əhatə etdi.

Bunlara Səngəçal terminalı, Sərəncə TTİEO yaxınlığında, Bakı-Tbilisi-Ceyhan (BTC) və Qərb İxrac Boru Kəməri boyunca atmosferdəki havanın keyfiyyətinin monitorinqi daxildir. Boru kəmərləri marşrutları boyunca və terminal yaxınlığındakı bir neçə yerdə gündüz və gecə vaxtlarında ətraf mühitdəki səs-küyün monitorinqi aparıldı.

Səngəçal terminalı yaxınlığında və ixrac boru kəmərləri boyunca qrunt sularının keyfiyyətinin, eləcə də səth sularının monitorinqini apardıq. Həmçinin Sərəncə TTİEO-da qrunt və səth sularının monitorinqi keçirildi.

Səngəçal terminalı ətrafında torpağın və bitkilərin tədqiqatı aparıldı. Terminal yaxınlığında canlılar aləminin (quşlar, məməlilər, herpetofauna) iki tədqiqatı həyata keçirildi. Azərbaycanda ixrac boru kəmərləri boyunca bioloji bərpa, bitki və növ müxtəlifliyi üzrə tədqiqat aparıldı.

# Cəmiyyət



Biz istəyirik ki, cəmiyyətə təsirimiz maraqlı tərəflərlə açıq dialoqun dəstək verdiyi, sahibkarlığın və icmaların davamlı inkişafına yol açan, müsbət təsir olsun.

BP nümayəndələri şirkətin sosial sərmayə layihəsinin bir hissəsi olaraq yerli bir universitetə bağışlanmış laboratoriyaya baş çəkirlər.

# Maraqlı tərəflərlə əməkdaşlıq

BP Azərbaycanda çox müxtəlif maraqlı tərəflərlə əməkdaşlıq etməklə bizə məsuliyyətli qərarların verilməsində kömək edən əlaqələr qurur.



"BP bizim əsas tərəfdaşımız və Azərbaycana ən çox sərmayə qoyan xarici şirkətdir. BP həm "Əsrin müqaviləsi"nin icrasında, həm də "Şahdəniz" layihəsində aparıcı xarici investordur, tərəfdaşdır. Digər layihələr üzrə SOCAR-BP əməkdaşlığı davam edir və bu əməkdaşlığın artıq 20 ildən çox tarixi var və bundan sonra on illiklər ərzində SOCAR-BP əməkdaşlığı davam edəcək."

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Hasilatın pay bölgüsü, tranzit ərazisinə malik ölkənin hökuməti ilə sazişlərimiz və digər razılaşmalar çərçivəsində qarşılıqlı maraq doğuran məsələlərlə bağlı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə işimizi davam etdirdik.

BP qrupunun baş icraçı direktoru Robert Dadlinin başçılıq etdiyi nümayəndə heyətini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci ilin yanvarında İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda və həmin ilin mart ayında Türkiyənin Qars şəhərində TANAP layihəsinin təməlqoyma mərasimində qəbul etdi.

İyun ayında BP və SOCAR Bakı 2015 Oyunlarına həsr olunmuş mərasim təşkil etdi. Robert Dadlinin və Rövnəq Abdullayevin ev sahibliyi etdikləri tədbirdə Azərbaycan Milli Olimpiya Komitəsinin və Azərbaycan Milli Paralimpiya Komitəsinin, idmançıların, hökumət və tərəfdaş şirkətlərin nümayəndələri iştirak etdilər.

Azərbaycan hökuməti ilə əməkdaşlığın bir hissəsi olaraq regional prezidentimiz Qordon Birrell Şahdəniz Mərhələ 2 və Cənub Qaz Dəhlizi də daxil olmaqla cari əməliyyat və layihələrimiz barədə yenilikləri çatdırmaq üçün yüksək vəzifəli rəsmilərlə müntəzəm olaraq görüşüb. İyun ayında Prezident İlham Əliyevi və qonaqlarını Bakıda keçirilən 22-ci Xəzər Neft-Qaz sərgisində BP-nin pavilyonunda qarşıladı.

İl ərzində Səngəçal terminalına 20-dən artıq ölkəni təmsil edən siyasətçi və jurnalistlər, tərəfdaşımız olan şirkətlərin qonaqları, eləcə də maliyyə, təhsil və digər təşkilatların nümayəndələri üçün təxminən 30 səfər təşkil etdik.

2015-ci il ərzində Azərbaycanda gördüyümüz işlərə kütləvi informasiya vasitələrinin böyük maraq göstərdiyinin şahidi olduq və yerli və xarici jurnalistlər üçün brifinqlər və müsahibələr təşkil etməklə onları Azərbaycandakı biznesimizin bütün aspektlərinə cəlb etdik. Aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələrini BP-nin təşkil etdiyi bütün şirkətxarici tədbirlərə dəvət etdik. Biz həmçinin jurnalistlərə BP-nin Dünya Energetikasının Statistik Xülasəsi sənədini təqdim etmək üçün bir media seminarı, eləcə də yerli və beynəlxalq media nümayəndələrinin iş sahələrimizə səfərini təşkil etdik. Media mənsublarının suallarına cavab vermək üçün 24 saat fəaliyyət göstərən xəttimiz açıq oldu.

BP-nin Rusiya/Müstəqil Dövlətlər Birliyi iqtisadiyyatı üzrə rəhbəri BP-nin hazırladığı Dünya Energetikasının Statistik Xülasəsini dövlət qurumlarına, biznes və elmi ictimaiyyətə, universitet tələbələrinə və media təmsilçilərinə təqdim etmək üçün 2015-ci ilin oktyabrında Bakıya səfər etdi. Görüşlər zamanı o, həmçinin şirkətin enerji bazarındakı uzunmüddətli təmayüllərini əks etdirən BP-nin Enerji Perspektivlərinə Baxışı – 2035 adlı hesabatı da təqdim etdi.

İki dildə fəaliyyət göstərən *bp.com/xezer veb-saytımız* Azərbaycan və regiondakı fəaliyyətlərimizi işıqlandırır və ictimaiyyətlə mühüm ünsiyyət vasitəsi olaraq qalır. Veb-sayta il ərzində gündəlik 820-dən artıq daxilolma qeydə alındı. Saytın onlayn sorğu forması vasitəsilə 1 483 sorğu aldıq.

## Gəlirlərin şəffaflığı

2003-cü ildə əsası qoyulmuş Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü (MHŞT) neft-qaz sektoru da daxil olmaqla mədən sənayesində şirkətlərin ödənişləri və hökumətlərin gəlirləri haqqında şəffaf hesabatların verilməsi üçün könüllü prosesin yaradılmasına kömək məqsədilə hazırlanıb. Bu təşəbbüs hökumətlər tərəfindən şirkətlər və vətəndaş cəmiyyəti qurumları ilə əməkdaşlıq şəraitində həyata keçirilir. MHTŞ-nin təsisçi üzvü olaraq BP uzun müddətdir ki, bu beynəlxalq təşəbbüsü dəstəkləyir.

Azərbaycanın dünyada MHTŞ tələblərinə cavab verən ilk ölkə olması 2009-cu ildə təsdiq edilib. Azərbaycanda maraqlı tərəflərin yerli çoxtərəfli nəzarət qrupunun üzvü və iştirakçı şirkətlər qrupunun əlaqələndiricisi kimi biz yerli MHŞT prosesində fəal rol oynamışıq. Avqustda BP Azərbaycanda özünün 2014-cü ilin yanvar-dekabr dövrünü əhatə edən MHŞT hesabatını təqdim etdi.



▲ 2015-ci il Neft və Qaz Sərgisi zamanı ziyarətçilər BP-nin pavilyonunda

▶ İcmalarla işimiz barədə səhifə 30-da öyrənə bilərsiniz.

# Sahibkarlığın inkişafı

Biz Azərbaycanın biznes sektorunda lazımlı bacarıqların inkişafını dəstəkləyərək Xəzər regionu üçün davamlı yerli təchizat sisteminin yaradılmasına kömək edirik.

## SİTP Korporativ Sosial Məsuliyyət mükafatına layiq görülüb

2015-ci ilin oktyabrında "Sahibkarlığın inkişafı və təlim proqramı"mız (SİTP) Azərbaycanda Amerikanın Ticarət Palatası tərəfindən iqtisadi səriştə kateqoriyasında Korporativ Sosial Məsuliyyət sahəsində əldə olunan nailiyyətlərə görə mükafata ("CSR Excellence Award") layiq görüldü. Bu mükafata innovativ layihələr həyata keçirməklə sosial inkişafa töhfə verən şirkətlər layiq görülür. Layihə 30 şirkət tərəfindən təqdim edilmiş 55 layihə arasından seçildi və dörd kateqoriya üzrə qiymətləndirildi: layihə başa çatandan sonra davamlılıq; təsir səviyyəsi; layihənin qiymətləndirmə mexanizmləri və nail olduğu məqsədlər.



BP və tərəfdaşlarının yerli şirkətlərlə birbaşa xərcləri (əməliyyatlar və layihələr daxildir) ($milyon)




2015-ci ildə Azərbaycanda tərəfdaşlarımızla birlikdə 131 yerli şirkətlə dəyəri təxminən 1,09 milyard dollar olan yeni uzunmüddətli müqavilələr imzaladıq.

Tərəfdaşlarımızla birlikdə 2015-ci ildə 238 yerli şirkət və fiziki şəxslə biznes fəaliyyəti həyata keçirdik ki, bunların 78%-i kiçik və orta müəssisələrdir. 2015-ci ildə Azərbaycandakı birgə əməliyyatlarımıza və layihələrimizə ümumilikdə 2,67 milyard dollar xərclədik ki, bu da 2014-cü illə eyni göstəricidir. Bunun bir hissəsi kimi yerli şirkətlərlə ölkə daxilindəki xərclərimiz təxminən 1,54 milyard dollar təşkil etdi.

## Sahibkarlığın inkişafı və təlim proqramı

2007-ci ildən "Sahibkarlığın inkişafı və təlim proqramı"nı (SİTP) həyata keçirməkdə məqsədimiz güclü biznes potensialına malik yerli şirkətləri müəyyən etmək, onların beynəlxalq standartlara cavab verməsinə dəstək göstərmək, rəqabət qabiliyyətliliyini artırmaqdır. Uzunmüddətli perspektivdə SİTP regionda sənayenin məhsul və xidmətlərin tədarükü üçün müraciət edə biləcəyi uyğun yerli şirkətlərin sayını artırmaq, bununla da yerli iqtisadiyyatın inkişafına töhfə vermək üçün nəzərdə tutulub.

2015-ci ilin sonuna qədər SİTP yerli şirkətlərə dəyəri təxminən 633 milyon dollar olan müqavilələri saxlamaqda kömək etdi ki, bunun da təxminən 383 milyon dolları Azərbaycanda BP ilə bağlanıb.

2015-ci il ərzində proqramı 19 şirkət başa vurdu və bununla proqramı tamamlayan şirkətlərin ümumi sayı 196-ya çatdı. Bu dövr ərzində daha 245 şirkətin SİTP tərəfindən ilkin qiymətləndirilməsi aparıldı. Proqram başladığı gündən etibarən ümumilikdə 1 863 şirkəti qiymətləndirib.

2015-ci ildə BP və tərəfdaşları əvvəllər SİTP-də iştirak etmiş 29 şirkətlə təxminən 34,7 milyon dollar dəyərində müqavilələr imzaladı. SİTP iştirakçısı olmuş beş şirkət digər beynəlxalq şirkətlərlə təxminən 3,31 milyon dollar dəyərində, 14 şirkət isə yerli şirkətlərlə 52 milyon dollar dəyərində müqavilələr bağladı. 2015-ci ildə yerli iştirakçı şirkətlər yeni əsaslı avadanlığa təxminən 2,55 milyon dollar sərmayə qoydular, 1813 nəfəri işə götürdülər.

# İcmalarla işimiz

Əməliyyatlarımızın ətrafındakı icmalarla açıq dialoqa və icmadakı çətinlikləri aradan qaldırmaq üçün birgə işə əsaslanan qarşılıqlı faydalı əlaqələr qurmağa çalışırıq.



Ümid və Səngəçal icmalarının üzvləri üçün CİSCO tərəfindən sertifikatlaşdırılan İnformasiya texnologiyalarının əsaslarına dair keçirilən kurs.



BP-nin dəstəklədiyi Qobustan Regional Təlim Mərkəzində Qaradağ rayonu qəsəbələrinin icmaları üçün peşə təlimi keçirilir.

## İcmalarla əlaqələrin saxlanması

BP müntəzəm şəkildə Bakı-Tbilisi-Ceyhan (BTC) və Cənubi Qafqaz Boru Kəməri (CQBK) marşrutu boyunca yerləşən icmalara öz planları barədə məlumat verir və onları narahat edən məsələləri öyrənir. Biz icma görüşlərindən və maarifləndirici vəsaitlərin paylanmasından tutmuş rəsmi yazışma və icma üzvləri tərəfindən qaldırılmış sual və ya şikayətlərə baxılmasına qədər bir çox formalardan istifadə edirik.

İctimaiyyətlə əlaqələrdən məsul əməkdaşlarımız ictimaiyyətlə məsləhətləşmələrə və icmalarla əlaqədar şikayət və təkliflərə baxmağa davam ediblər. 2013-cü ildən boru kəmərləri ətrafında məhdudiyyətləri izah edən məlumatlandırıcı qovluqlar yayırıq. 2015-ci ilin sonuna qədər torpaq sahiblərinə, istifadəçilərinə və digər maraqlı tərəflərə təxminən 4300-dən artıq qovluq paylanılıb. Biçənəyin yanması, boru kəmərinin göstərici lövhələrinin zədələnməsi və təhlükəsizlik zonalarına giriş qadağalarına əməl olunmaması kimi üçüncü tərəflərə aid qayda pozulması hallarının sayı 2015-ci ildə 47 oldu.

### Şikayətlərin idarə olunması

Biz inanırıq ki, açıq dialoq uzunmüddətli güclü, qarşılıqlı fayda verən işgüzar münasibətin qurulmasına kömək edir və bütün tərəflərə imkan yaradır ki, narahatlıq doğuran hər hansı məsələ konstruktiv şəkildə həll edilsin.

İcmalardan və digər maraqlı tərəflərdən 115 müraciət aldıq ki, bunlar da əsasən, boru kəməri dəhlizində aparılmalı olan infrastruktur işləri üçün icazə ilə bağlı idi. 2015-ci ilin sonuna qədər bu müraciətlərin hamısına cavab verdik. 2007-ci ildən boru kəmərləri marşrutu boyunca yerləşən icmalar üçün şikayətlərlə bağlı məsələlərin həlli mexanizmi fəaliyyət göstərir. 2015-ci ildə BTC/CQBK ilə bağlı 12 şikayət daxil oldu ki, ilin sonunadək bunlardan doqquzuna cavab verildi. Daha bir şikayətə bu ilin yanvarında cavab verilib və qalan ikisinin üzərində işləyirik.

Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) layihəsi ictimaiyyəti narahat edən bütün məsələləri başa düşmək və onları həll etməyə kömək məqsədilə icmaların şikayətinə baxılması mexanizmini hazırlayıb tətbiq etdi. 2015-ci ildə icmalardan gələn bütün şikayətlər və təkliflər qeydiyyata alındı, qəbul edildi və cavablandırıldı.

CQBKG layihəsi 424 kilometrlik boru kəməri marşrutu boyunca boru kəmərinin podratçısı "Saipem-Azfen" birgə müəssisəsi (SABM) tərəfindən əlaqələndirilməklə icmalar ilə münasibətlərini davam etdirir.

2015-ci ildə Kürdəmir, Yevlax, Ucar, Hacıqabul, Ağdaş, Goranboy və Ağstafa rayonlarının ictimaiyyəti arasında icmaların məlumatlandırılmasına həsr olunmuş 15 görüş keçirildi. Yığıncaqların mövzularına icma təhlükəsizliyi, işəgötürmə prosesi və iş imkanları, eləcə də layihə barədə ümumi yeniliklər daxil idi. Bundan əlavə, CQBKG layihəsi məktəblilərin təhlükəsizliyi proqramının bir hissəsi olaraq 32 məktəbdə təhlükəsizlik yığıncaqları keçirdi və bu tədbirlərdə 2500-dən artıq şagird, 140-dan çox müəllim iştirak etdi.

### Torpaq sahələri üzərində hüquqların əldə edilməsi

CQBKG layihəsi üçün torpaq sahələri üzərində hüquqların əldə edilməsi prosesi 2015-ci ildə davam etdi. Torpaq sahələrinin icarə müqaviləsinin bir hissəsi kimi, biz ilk 200 kilometr üzrə 950-dən artıq torpaq sahibi və istifadəçisinə kompensasiya ödənişini başa çatdırdıq. CQBKG marşrut dəhlizi boyunca son 224 kilometr üzrə 3200-dən artıq torpaq sahibi və istifadəçisi ilə yeni müqavilələr imzaladıq. Layihənin planına əsasən, qalan torpaq icarə müqavilələri və kompensasiyaların verilməsi 2016-cı ildə başa çatdırılacaq. CQBKG layihəsi üzrə heç bir qeyri-könüllü köçürülmə halı qeydə alınmayıb.

Kompensasiyaların verilməsi prosesi və prinsipləri "Torpaqlar üzərində hüquqların əldə edilməsi və kompensasiyaların verilməsi" sənədinə uyğundur və təsirə məruz qalmış sahələr üçün kompensasiya ödənişlərinin verilməsi 2016-cı ildə tamamlanacaq. Sənədlə bu ünvanda onlayn tanış ola bilərsiniz: *bp.com/xezer*

## İnkişaf təşəbbüsləri

Biz Azərbaycanda əməliyyatlarımızın bir hissəsi olaraq müxtəlif icma və davamlı inkişaf təşəbbüslərini, o cümlədən yerlərdə təhsilin təkmilləşdirilməsi, icma əsaslı bacarıq və səriştələrin yaradılması və yerli sahibkarlığın inkişafı məqsədilə zəruri təlim və maliyyənin təmin olunması üçün hazırlanmış layihələri dəstəkləyirik.

### İcma ehtiyaclarının qiymətləndirilməsi

BP-nin Azərbaycandakı əməliyyatları üzrə müvafiq sosial investisiya layihələrinin əhatəsini müəyyənləşdirmək məqsədilə 2015-ci ildə icma ehtiyaclarının qiymətləndirilməsini apardıq. Buraya BP-nin Azərbaycanda həyata keçirdiyi layihələr üzrə ətraf mühitə və sosial sahəyə təsirinin qiymətləndirilməsi ilə bağlı üzərinə götürdüyü öhdəliklərin nəzərdən keçirilməsi, əsas maraqlı tərəflərlə müsahibələr və layihənin təsirinə məruz qalmış 44 icmada qrup müzakirələri aparmaq daxil idi. Bu iş bizim ictimai sərmayə strategiyamız çərçivəsində idi və qarşıdakı bir neçə ildə həyata

keçirilməli olan potensial sosial investisiya layihələrini müəyyən etdi.

2015-ci ildə bu qiymətləndirmə zamanı aşkara çıxmış ehtiyacları ödəyən bir sıra icma inkişafı təşəbbüslərini həyata keçirdik.

### Məktəbəqədər yaşlı uşaqlar üçün kompüter əsaslı təhsil layihəsi

Boru kəmərlərinin keçdiyi rayonlarda uşaq bağçalarını işlənmiş kompüterlərlə təchiz etmək barədə 2014-cü ilin noyabrında PCs4KIDS Fondu ilə anlaşma memorandumu imzaladıq. Bu layihənin başlıca məqsədi dərs zamanı əyləncəli kompüter proqramlarından istifadə etməklə məktəbəqədər yaşlı uşaqlara fəal dinləmə və yaradıcı düşüncə qabiliyyətləri kimi idrak bacarıqlarını inkişaf etdirmək imkanı yaratmaqdır. 2015-ci ildə Qaradağ, Hacıqabul, Kürdəmir və Ucar rayonlarında 11 icmaya 101 kompüter payladıq.

### Səhiyyə üzrə maarifləndirmə sessiyaları

2015-ci ilin noyabr ayında Hacıqabul, Kürdəmir və Ucar rayonlarında layihənin təsirinə məruz qalmış 11 icmada 300-ə yaxın insan üçün vərəm barədə icmanın maarifləndirilməsi sessiyası keçirdik. Bu sessiyalar Azərbaycan Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutunun iki həkimi tərəfindən aparıldı. Sessiyalar zamanı vərəm, onun simptomları, müalicə üsulları və profilaktika tədbirləri barədə məlumat verildi.

### Səngəçal və Ümid icmalarında İT-nin əsasları kursu

2015-ci ilin dekabrında Qaradağ rayonunun Ümid və Səngəçal icmalarının üzvləri üçün onlara gəlir yaratmaq və məşğulluq imkanlarını artırmaq şəraiti yaradan qeyri-kənd təsərrüfatı səriştələri verən layihəyə başladıq. CİSCO tərəfindən sertifikatlaşdırılan İnformasiya Texnologiyalarının (İT) əsaslarına dair kurs Azərbaycan dilində keçirilir və İT sahəsindəki ilkin səviyyəli işlər üçün mühüm kompüter və karyera bacarıqlarını əhatə edir. 2016-cı ilin mart ayında 50 nəfər icma üzvü üç aylıq kursu bitirərək dəyərli səriştələr və praktiki təcrübə qazandılar. Bu kursda noutbuk və portativ cihazlar, simsiz əlaqə, təhlükəsizlik, texniki təhlükəsizlik və ünsiyyət bacarıqları kimi mövzular əhatə olunurdu.

### Goranboy icmalarında sosial infrastrukturun yaxşılaşdırılması

2015-ci ildə Goranboy rayonunun layihənin təsirinə məruz qalmış icmalarında infrastrukturun yaxşılaşdırılması ilə bağlı üç layihəyə başladıq: Qazanbulaq kəndində su sisteminin yenilənməsi; İrəvanlı kəndində ibtidai məktəbin təmiri və istilik sisteminin yenilənməsi layihələri.

### Avropa Yenidənqurma və İnkişaf Bankı ilə regional mikromaliyyə proqramı

2006-cı ildə imzalanmış çərçivə sazişinə əsasən, BP və tərəfdaşları Azərbaycanda və Gürcüstanda Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) vasitəsilə kredit kimi istifadə etmək və özəl sektorun inkişafına texniki dəstək vermək məqsədilə 6 milyon dollar ayırdı.

AYİB tərəfindən idarə olunan və onun yerli tərəfdaşı Bank Respublika tərəfindən həyata keçirilən hazırkı mikromaliyyə layihəsi çərçivəsində BP və tərəfdaşları 1 milyon dollar vəsait ayırıb. Bu layihənin məqsədi BTC/CQBK boyunca mikro, kiçik və orta sahibkarlar, yerli fermerlər və müəssisələr üçün əlçatan və şəffaf mikromaliyyə imkanları yaratmaqdır ki, onlar öz rəqabətliliyini artıra bilsinlər. Hədəf ərazilərə Tovuz, Şəmkir, Goranboy və Yevlax rayonları daxildir.

2015-ci ildə Şəmkir, Goranboy və Yevlax rayonlarında ümumi məbləği 250 000 dollar olan 40 kredit verildi. Kreditlərin 20-si kənd təsərrüfatı, dördü xidmət və 16-sı ticarət fəaliyyətləri üçün istifadə ediləcək.

## Biznes fəaliyyəti və insan haqları

BMT-nin İşgüzar Fəaliyyət və İnsan Hüquqlarına dair Rəhbər Prinsipləri bizneslərin insan haqları ilə bağlı daşıdığı bir sıra spesifik məsuliyyətləri təsbit edir. Bu Rəhbər Prinsiplərə uyğun olaraq biznesin rolu insan haqlarına hörmətlə yanaşmaq, qüvvədə olan bütün qanunlara riayət etmək və işgüzar fəaliyyətin səbəb ola biləcəyi və ya təsir göstərə biləcəyi hər hansı insan haqlarının pozulması hallarının, məsələn, fərdlər və icmalar üçün şikayətlərə baxılması üzrə işlək mexanizmlər vasitəsilə aradan qaldırılmasıdır.

BP riskə əsaslanan metoddan istifadə etməklə proseslərimizi Rəhbər Prinsiplərə uyğunlaşdırmaq istiqamətində işləyir. BP-nin insan hüquqları ilə bağlı öhdəliklərini müəyyən edən İnsan Hüquqları siyasətimizi Rəhbər Prinsiplərin müvafiq bölmələrinə riayət etməklə və biznes fəaliyyətlərimizə istiqamət verən proseslərə və siyasətlərə tətbiq etməklə həyata keçiririk. İnsan hüquqları prinsipləri artıq BP-nin bir çox mövcud daxili qaydalarının, xüsusilə də davranış kodeksi, dəyərləri və əməliyyatlarla bağlı bir çox tələblərinin əsasını təşkil edir. 2015-ci ildə işəgötürmə, işçilərin rifahı, torpaq üzərində hüquqların əldə olunması və gəlir mənbələri, eləcə də təsirə məruz qalmış icmalarda digər aidiyyəti məsələləri əhatə edən sahələrdə insan hüquqları ilə bağlı potensial təsirləri müəyyənləşdirməyə və onları həll etməyə davam etdik.

Biz hasilat sənayesində əməliyyatların təhlükəsizliyini təmin etmək üçün normativ baza müəyyənləşdirən Təhlükəsizlik və İnsan Haqları haqqında Könüllülük Prinsiplərini qəbul etmişik. Azərbaycanda əməliyyatlarımızın qorunmasına cəlb olunmuş bütün təhlükəsizlik heyətinə öz işlərinin insan haqları ilə bağlı mümkün təsirlərini başa düşmələrini təmin etmək üçün Könüllülük Prinsiplərinə dair təlimlərə dəstək verməyə davam etdik.



BP-nin dəstəklədiyi layihədə əyləncəli kompüter proqramlarından istifadə edilməklə məktəbəqədər yaşlı uşaqlara idrak bacarıqlarını inkişaf etdirmələri üçün imkan yaradılır.

Azərbaycanda BP-nin və podratçılarımızın təhlükəsizlik sahəsində çalışan işçi heyəti BP-nin qlobal könüllülük prinsipləri üzrə məsləhətçisinin 2015-ci ilin may ayında apardığı Könüllülük Prinsiplərinə dair təkmilləşdirmə təlimində iştirak etdi.

Biz əməliyyatlarımızın mühafizəsini təmin etmək üçün dövlət qurumu olan Neft və Qaz Boru Kəmərlərinin Təhlükəsizliyi İdarəsi (NQBKTİ) ilə əməkdaşlıq edirik. 76 şəhadətnaməli təlimçi əməkdaşın çalışdığı NQBKTİ öz işçi heyətinə Könüllülük Prinsipləri üzrə təlimlər verir. 2015-ci ildə BP-nin iş sahələrində işləyən ümumilikdə 39 nəfər işə yeni götürülmüş işçi, dövlət orqanının 350 təhlükəsizlik əməkdaşı və təhlükəsizlik xidməti göstərən özəl podratçının 90 işçisi könüllülük prinsipləri üzrə təlimini başa vurdu.

Boru kəmərləri boyunca təsirə məruz qalmış icmalara və fərdlərə normadankənar güc tətbiqi və insan hüquqlarının pozulması halları barədə birbaşa BP-ni və dövlət təhlükəsizlik təminatçısını birgə araşdırma aparmaq üçün məlumatlandırmağa imkan verən qaynar xətt yaratmışıq. 2015-ci ildə bu xətt vasitəsilə təhlükəsizlik və ya insan haqları ilə bağlı hər hansı hadisənin baş verməsinə dair heç bir məlumat daxil olmayıb.

# Təhsilin, mədəniyyətin və idmanın dəstəklənməsi

İcma inkişafı təşəbbüslərimizdən əlavə, təhsilə və səriştələrin yaradılmasına, mədəniyyətə və idmana yönəldilmiş proqramları dəstəkləyirik.



Tələbələr sedimentologiya və struktur geologiya üzrə nəzəri və praktiki biliklər verən və BP-nin maliyyə dəstəyi ilə keçirilən yay çöl-səhra təcrübəsi zamanı.

## Təhsil təşəbbüsləri

Geniş çeşidli müxtəlif təhsil təşəbbüslərində iştirakımızda məqsəd Azərbaycanda neft-qaz sənayesinə dəstək vermək üçün yerli potensialın yaradılmasıdır.

### Azərbaycan neft və qaz təqaüd proqramı

BP və tərəfdaşlarının maliyyələşdirdiyi bu təqaüd proqramı azərbaycanlı tələbələrə Türkiyə və Azərbaycan universitetlərində mühəndislik və yerşünaslıq elmləri sahəsində bakalavr və magistr təhsili almaq imkanı yaradır. 2015-ci ildə əvvəlki illərdə seçilmiş və hazırda təhsil alan tələbələr üçün təqaüd verməyə davam etdik. Bu təqaüdün məbləği 462000 dollara yaxın oldu.

2015-ci ildə dörd belə tələbəni məzunların işəqəbulu proqramı çərçivəsində işə götürdük, digər dörd tələbə isə yay təcrübəsi proqramımıza qəbul edildi.

### BP-nin təqaüd proqramı

Azərbaycanda neft-qaz ixtisasları ilə əlaqədar sahələr üzrə təhsil alan universitet tələbələrinə 2007-ci ildən təqaüd veririk. Bu, tələbələrə BP-nin maliyyələşdirdiyi 10-aylıq təlim kursu vasitəsilə texniki sahə üzrə ingilis dili vərdişlərini təkmilləşdirməyə imkan verir. 2015-ci ildə universitetə qəbul olunarkən yüksək nəticə göstərmiş əvvəlki ilin 12 təqaüdçüsü üçün kursu bir il artırmağı təklif etdik. 2015-ci ildə təqaüdlərin ümumi məbləği 17113 dollar oldu.

### Layihələri İdarəetmə Məktəbi

BP və tərəfdaşlarının 2010-cu ildə təsis etdikləri Layihələri İdarəetmə Məktəbi (LİM) Azərbaycanın həm özəl, həm də dövlət sektorunda işləyən mütəxəssisləri üçün qlobal səviyyədə tanınan müfəssəl bir proqram üzrə təhsil almaq imkanı yaratmaqda davam edir. 2015-ci ilin sonunadək LİM-də 114 özəl və dövlət təşkilatından təxminən 325 nəfər iştirak etdi.

Dekabrda proqramın dördüncü buraxılışını keçirdik. Corc Vaşinqton Universitetinin dinləyici sertifikatını almış ümumilikdə 312 məzundan 282 nəfəri həm də magistr sertifikatına layiq görüldü.

LİM layihənin idarə olunması üzrə qlobal təlim təşkilatı olan “ESI International” tərəfindən Xəzər Universiteti ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir. Bütövlükdə LİM üzrə BP və tərəfdaşlarının maliyyə sərmayəsi 2 milyon dollardan artıqdır ki, bunun 558248 dolları 2015-ci ildə xərclənib.

### İcmalar üçün peşə təlimi

2014-cü ilin sentyabr ayında BP öz tərəfdaşları adından yerli işçi qüvvəsinin təlim keçməsinə yardım etmək üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə saziş imzaladı. Bu saziş çərçivəsində Qaradağ rayonunun Səngəçal terminalına qonşu yaşayış məntəqələrindən seçilmiş 79 nəfər gənc, ixtisaslaşmış texnik olmaq üçün SOCAR-ın Qobustan Regional Təlim Mərkəzində təlim keçdi. Layihənin ümumi büdcəsi 624 000 dollardan artıqdır.

### Qafqaz Universiteti layihəsi

Azərbaycanda mühəndislik sahəsi üzrə yerli mütəxəssislərin inkişafına dəstək üçün Qafqaz Universitetindəki layihəmizi davam etdirdik. Bu layihə 2009-cu ildə başlanandan etibarən BP iki fakültə və 16 laboratoriyanın yaradılması üçün 2,5 milyon dollardan artıq sərmayə qoyub. 2015-ci ilin yanvarında BP Qafqaz Universiteti ilə əməkdaşlığın müddətinin 2018-ci ilin martına qədər uzadılması barədə saziş imzaladı.

### BP-nin tələbələr üçün geologiya üzrə yay təcrübə kursu

2003-cü ildən BP Azərbaycanda tələbə və məzunlara sedimentologiya və struktur geologiya üzrə nəzəri və praktik biliklər verən yay çöl-səhra təcrübəsinə sponsorluq edir. 182 iddiaçı arasından biliklərin qiymətləndirilməsi əsasında ümumilikdə18 universitet tələbəsi seçildi. Kursu Azərbaycan Milli Elmlər Akademiyasının və Miçiqan Universitetinin (ABŞ) nümayəndələri apardılar.

### Azərbaycan Biznes Keys Müsabiqəsi

BP-nin dəstəyi ilə universitet tələbələri arasında keçirilən Azərbaycan Biznes Keys Müsabiqəsində yarışan komandalar maliyyə və marketinqdən tutmuş mühasibat və menecmentə qədər sahələri əhatə edən biznes fənləri üzrə biliklərindən istifadə edərək real həyatdan götürülmüş biznes məsələlərini həll etməyə çalışırlar. Onlar öz həll yollarını Azərbaycandakı iri biznes təmsilçilərindən ibarət münsiflər heyətinə təqdim edirlər.

2015-ci ildə müsabiqə BP və digər sponsor sənaye təşkilatlarının dəstəyi ilə ADA Universitetində keçirildi. Müsabiqədə iştirak etmək üçün Azərbaycandan 50 komanda müraciət etmişdi, onlardan finalçı kimi üç komanda seçildi. Müsabiqəyə hazırlaşmaq üçün tələbələr biznes keys təhlili və strategiya hazırlamaq barədə dörd həftəlik məşqlər və praktiki təlimlərdən keçdilər.

BP-nin sponsorluq töhfəsi 4759 dollar idi, şirkətin əməkdaşları müsabiqəyə təlimçi, məşqçi və münsif kimi öz töhfələrini verdilər.



BP və tərəfdaşlarının təsis etdiyi Layihələri İdarəetmə Məktəbinin məzunları.



Elit idmançıların inkişafı və təlimi proqramı çərçivəsində MJP şirkətinin mütəxəssisi yerli idmançıya təlim keçir.

## İdmanın inkişafına dəstəyimiz

Milli Olimpiya və Paralimpiya Komitələri ilə rəsmi tərəfdaş kimi işləməyi davam etdirdik. Buraya Azərbaycan Milli Olimpiya və Paralimpiya komandalarına və bizim səfirlərimiz kimi seçilmiş atletlər qrupuna sponsorluq daxildir.

Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və "Michael Johnson Performance" (MJP) şirkəti ilə birgə elit idmançıların inkişafı və təlimi proqramını həyata keçirdik.

Proqramın məqsədi milli idmançılardan və məşqçilərdən ibarət böyük bir qrupa MJP şirkətinin beynəlxalq təcrübəsindən faydalanmaq imkanı yaratmaq və beləliklə, onların idmanda yüksək nailiyyətlər qazanmaqla beynəlxalq idman tədbirlərində Azərbaycanın iştirakını artırmaq istiqamətində gördüyü səylərə dəstək olmaqdır.

Proqramda məşqçilər və idmançılarla, o cümlədən BP-nin xüsusi nümayəndəsi seçilmiş idmançılarla təmsil olunan dörd milli idman federasiyasının (yüngül atletika, gimnastika, triatlon və qılıncoynatma) iştirakı nəzərdə tutulmuşdu. Ümumilikdə 85 idmançı yoxlamadan keçərək bu proqrama seçilib.

### Bakı 2015 Oyunlarına dəstək

BP Bakı 2015 Avropa Oyunlarının rəsmi tərəfdaşı, eləcə də oyunların neft və qaz tərəfdaşı oldu.

BP həmçinin Bakı 2015 Oyunlar Akademiyası təşəbbüsünün eksklüziv rəsmi tərəfdaşı oldu. Bu təlim proqramı universitet məzunları daxil olmaqla yerli heyət üzvlərinin inkişaf etdirilməsi, çoxsaylı idman növlərini əhatə edən mötəbər tədbirlərin səmərəli şəkildə keçirilməsi, eləcə də gələcək karyeralarında onlara kömək edəcək səriştələri inkişaf etdirmək məqsədi daşıyırdı.

162 Azərbaycanlı və 26 beynəlxalq məzun olmaqla ümumilikdə Azərbaycan və Avropadan olan 188 universitet məzunu Məzun Təkmilləşdirmə Proqramına cəlb olundu. Məzunlar Avropa Oyunlarının uğurla həyata keçirilməsinə yardım etmiş faydalı səriştə və biliklərə yiyələndilər.

İştirakçılara oyunların planlaşdırılması üzrə praktiki təcrübələrini davam etdirmək üçün əlavə imkanlar yaradıldı, onlar sınaq tədbirlərində iştirak etdilər.

### Muzeylərə pulsuz giriş

2013-cü ildən 2015-ci ilin sonuna qədər Milli Azərbaycan Tarix Muzeyi və Azərbaycan Milli İncəsənət Muzeyi, Qız Qalası tarixi abidəsi, Azərbaycan Xalça Muzeyi və Şirvanşahlar Sarayı Kompleksi də daxil olmaqla Bakının aparıcı muzeylərinə beş sərbəst giriş kampaniyasına sponsorluq etmişik.

Bu kampaniyalar ərzində muzeylərə təxminən 90000 ziyarətçi baş çəkib.

2015-ci ilin oktyabrında bu kampaniya Azərbaycanda Amerika Ticarət Palatası tərəfindən Korporativ Sosial Məsuliyyət sahəsində mədəniyyət kateqoriyası üzrə mükəmməllik mükafatına ("CSR Excellence Award") layiq görüldü.



# Beşillik icra göstəriciləri[1]

31 dekabr tarixində qurtaran il üçün

| İstismar | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Hasil edilmiş karbohidrogenlərin ümumi həcmi (gündə min barel neft ekvivalenti)[2] | 922 | 893 | 909 | 900 | **903** |

| Maliyyə[3] | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Əməliyyat məsrəfləri – sərf olunmuş ümumi məbləğ (milyon dollar) | 1 206 | 1 360 | 1 542 | 1 766 | **1 388** |
| Əsaslı məsrəflər – sərf olunmuş ümumi məbləğ (milyon dollar) | 2 636 | 3 669 | 4 862 | 7 170 | **7 674** |

| Əməyin təhlükəsizliyi | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Ölüm halları – əməkdaşlar | 0 | 0 | 0 | 0 | **0** |
| Ölüm halları – podratçılar | 0 | 0 | 0 | 0 | **0** |
| İş gününün itirilməsi hadisələri – işçi qüvvəsi | 3 | 3 | 5 | 0 | **2** |
| İş gününün itirilməsi hadisələrinin tezliyi – işçi qüvvəsi | 0,03 | 0,03 | 0,03 | 0 | **0,01** |
| Qeydiyyata alınan xəsarətlər – işçi qüvvəsi | 21 | 20 | 40 | 14 | **17** |
| Qeydiyyata alınan xəsarətlərin tezliyi – işçi qüvvəsi | 0,24 | 0,21 | 0,27 | 0,09 | **0,08** |
| İşlənmiş saatlar – əməkdaşlar (milyon saat)[4] | 5,8 | 5,6 | 13,5 | 13,4 | **8,5** |
| İşlənmiş saatlar – podratçılar (milyon saat)[5] | 11,74 | 13,49 | 16,49 | 18,78 | **35,15** |

| Ətraf mühit | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Birbaşa karbon dioksid (CO2) ümumi[6] (min ton) | 3 892,5 | 3 543,7 | 3 021,8 | 3 846,5 | **3 275,2** |
| Dolayısı ilə karbon dioksid (CO2)[7] ümumi (min ton) | 0,6 | 0,6 | 0,6 | 0,7 | **1,2** |
| Birbaşa metan (CH4), ümumi (min ton) | 13,5 | 11,2 | 6,8 | 11,6 | **5,9** |
| Birbaşa istixana qazı emissiyaları,[8] ümumi (min ton CO2 ekvivalenti) | 4 177 | 3 776 | 3 164 | 4 067 | **3 400** |
| Məşəldə yandırılma (kəşfiyyat və hasilat), ümumi (ton) | 589 717 | 475 910 | 256 423 | 413 120 | **203 651** |
| Kükürd dioksid (SOx), ümumi (ton) | 112 | 114 | 122 | 155 | **150** |
| Azot oksidləri (NOx), ümumi (ton) | 8 544 | 8 695 | 8 887 | 11 179 | **10 966** |
| Qeyri-metan karbohidrogenlər, ümumi (ton) | 2 787 | 2 540 | 1 505 | 3 406 | **2 438** |
| Neft dağılmalarının sayı[9] | 5 | 12 | 11 | 6 | **2** |
| Dağılmış neftin həcmi (litr) | 2 677 | 175 716 | 15 232 | 14 311 | **1 045** |
| Yığılmamış neftin həcmi (litr) | 0 | 156 794 | 643 | 40 | **805** |
| Suya əməliyyat atqıları – tərkibində sintetik əsaslı qazma məhlulu olan qazma şlamları (ton ) | 0 | 0 | 182 | 881 | **2753** |

| Əməkdaşlar | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| BP Azərbaycanda daimi əməkdaşların sayı[10] | 2 701 | 3 072 | 3 255 | 3 393 | **3 150** |
| BP Azərbaycanda daimi ixtisaslı işçilərin sayı[10] | 2 652 | 2 982 | 3 216 | 3 381 | **3 130** |
| Yerli əməkdaşlar[10] | 2 272 | 2 530 | 2 722 | 2 907 | **2 735** |
| Yerli əməkdaşlar (%) | 86% | 85% | 85% | 86% | **87%** |
| Əcnəbi əməkdaşlar | 380 | 452 | 494 | 474 | **415** |
| Azərbaycan vətəndaşları olan yüksək vəzifəli menecerlər | 149 | 168 | 197 | 230 | **275** |

| Sosial xərclər | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| BP və tərəfdaşları üçün cəmi, ümumi (milyon dollar)[11] | 3,1 | 4,5 | 2,7 | 5,9 | **4,5** |

[1] Əgər başqa cür göstərilməyibsə, icra göstəriciləri yalnız Azərbaycanda BP-yə aiddir.
[2] Buraya Azəri-Çıraq-Dərinsulu Gunəşli nefti, Şahdəniz qaz və kondensatı, həmçinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə çatdırılan səmt qazı daxildir.
[3] BP AGT və onun tərəfdaşları.
[4] Əməkdaşlar tərəfindən işlənmiş saatlar BP ilə iş müqaviləsi olan şəxslərin işlədiyi saatlar kimi təyin olunur. Bu tərif BP qrupunun tərifinə uyğundur.
[5] Podratçılar tərəfindən işlənmiş saatlar bizim nəzarət sferamızda podratçıların işlədiyi saatlar kimi təyin olunur. Bu tərif BP qrupunun tərifinə uyğundur.
[6] Ümumi rəqəmlər hasilatın pay bölgüsü sazişlərində (HPBS) iştirak edən bütün tərəfdaşların paylarının məcmusunu əks etdirir. Xalis rəqəmlər HPBS-də BP-nin iştirak payını göstərir.
[7] Dolayısı ilə emissiyalar kənar mənbələrdən buxar, elektrik və istiliyin əməliyyatlar tərəfindən idxalı nəticəsində meydana gəlir.
[8] Birbaşa emissiyalar əməliyyatlardan hasil olan fiziki emissiyalarıdır.
[9] Neft dağılmaları bir barelə (42 ABŞ qallonuna bərabər 159 litr) bərabər və ya daha böyük həcmdə hər hansı maye karbohidrogenin ikinci dərəcəli mühafizə qatına yaxud açıq ətraf mühitə sızması kimi təyin edilir.
[10] Burada BP Azərbaycan şirkətinin xaricdə ezamiyyətdə olan 30 Azərbaycan vətəndaşı işçisi də daxildir
[11] Bu, BP-nin əməliyyatçısı olduğu layihələr çərçivəsində faktiki olaraq ödənilmiş rəqəmdir.

# Müstəqil əminlik bəyanatı

BP-nin Azərbaycanda həyata keçirdiyi davamlı inkişaf fəaliyyətlərinə dair məlumat, açıqlama və bəyanatların faktlara və izahlara əsaslandığı barədə BP rəhbərliyində əminlik yaratmaq məqsədi ilə biz BP-nin Azərbaycanda 2015-ci il üçün hazırladığı davamlı inkişaf haqqında hesabatı yoxlamışıq. Gördüyümüz işlərin əhatə dairəsi və gəldiyimiz nəticələrlə bu səhifədə tanış olmaq olar.

## Müstəqil şirkətin BP rəhbərliyinə əminlik barədə təminat bəyanatı

Biz BP-nin Azərbaycanda 2015-ci il üçün hazırladığı davamlı inkişaf haqqında hesabatda (Hesabat) təqdim edilmiş bəyanatları və seçilmiş icra göstəriciləri ilə bağlı məhdud əminlik öhdəliyini yerinə yetirmişik.

## Müvafiq cavabdehliklər

Azərbaycanda BP-nin rəhbərliyi Hesabat daxilindəki məlumatların toplanmasına və təqdim olunmasına cavabdehdir. Şirkət rəhbərliyi həmçinin Hesabatda yalan və yaxud xətalı məlumatlar səbəbindən hər hansı yanlış bəyanatların olmamasını təmin etmək məqsədilə Hesabatın hazırlanması üçün müvafiq daxili nəzarət tədbirlərini planlaşdırmağa, icra etməyə və qüvvədə saxlamağa da cavabdehlik daşıyır.

Rəhbərliyin göstərişlərinə uyğun olaraq bizim cavabdehliyimiz Hesabatdakı seçilmiş məlumatlar və icra göstəriciləri ilə bağlı əminlik üçün məhdud öhdəliyi yerinə yetirməkdir ("müvafiq mövzu üzrə məlumatlar"). Biz hər hansı digər məqsədlə və ya hər hansı digər şəxs yaxud təşkilat qarşısında üzərimizə heç bir məsuliyyət götürmürük və ya qəbul etmirik. Hesabatda təqdim edilmiş ola biləcək hər hansı bu cür üçüncü tərəfin məlumatına əsaslanan tərəf bunu tamamilə öz riski hesabına edir.

## Gəldiyimiz nəticələr gördüyümüz hansı işlərə əsaslanır

Əminlik üzrə götürdüyümüz öhdəlik Beynəlxalq Mühasiblər Federasiyasının beynəlxalq ISAE3000 (Düzəliş edilmiş)[1] standartına uyğun olaraq planlaşdırılmış və həyata keçirilmişdir.

Hesabat aşağıdakı meyarlara görə qiymətləndirilmişdir:

- Hesabatın 2015-ci ildə media nümayəndələri tərəfindən BP-nin Azərbaycandakı fəaliyyətləri ilə əlaqədar qaldırdığı davamlı inkişafa dair əsas məsələləri, Azərbaycanda BP-nin mühüm davamlı inkişaf problemləri ilə bağlı özünün keçirdiyi yoxlama və seçilmiş daxili sənədləri əhatə edib-etməməsi.
- Hesabatda verilmiş davamlı inkişaf haqqında məlumatların BP-nin müvafiq rəhbərləri tərəfindən verilən izah və dəlillərə uyğun gəlib-gəlməməsi.
- Hesabatda verilmiş davamlı inkişaf haqqında məlumatların müvafiq biznes bölümü səviyyəsində qeydə alınmış məlumatlara uyğun gəlib-gəlməməsi

## Nəticələrə gəlmək üçün biz xülasəsi aşağıda sadalanan işləri həyata keçirmişik.

1. Azərbaycanda BP-nin 2015-ci ildə davamlı inkişafla bağlı fəaliyyətinə dair şirkətdənkənar kütləvi informasiya vasitələrinin hesabatlarını və şirkətdaxili sənədləri nəzərdən keçirmişik.
2. Hesabatda əksini tapmalı əsas məsələlərin müəyyənləşdirilməsi üçün Azərbaycanda BP-nin nəzərdə tutduğu proseslərin nəticələrini nəzərdən keçirmişik.
3. Hesabatda davamlı inkişaf üzrə verilmiş icra göstəriciləri və bəyanatlar haqqında məlumat və ya izahatları nəzərdən keçirmişik. Hesabatda əksini tapmış davamlı inkişaf üzrə göstəriciləri dəstəkləyən sənədləri yoxlayarkən ölkə və ya sahə səviyyəsində məlumatların toplanması, müqayisə edilməsi və onların necə əldə edilməsi proseslərini yoxlamamışıq.

## Yoxlamamızla bağlı məhdudiyyətlər

Dəlil toplama prosedurаlarımız "məhdud əminlik səviyyəsi" (ISAE3000 (Düzəliş edilmiş) standartında təsbit edildiyi kimi) əldə etmək və nəticələri əsaslandırmaq üçün nəzərdə tutulmuşdur. Həyata keçirilmiş dəlil toplama prosedurаlarının səviyyəsi məqbul əminlik öhdəliyinin yerinə yetirilməsinə (məsələn, maliyyə auditi) verilən tələblərlə müqayisədə aşağıdır və buna görə də, nisbətən aşağı səviyyəli əminlik təmin edilmişdir.

Yoxlama fəaliyyətlərimizdə davamlı inkişafa dair məlumatların idarə olunması və hesabata daxil edilməsi üçün BP-nin tətbiq etdiyi nəzarət tədbirləri əsas götürülüb və bu əsaslanma dərəcəsi nəzarət tədbirlərinin effektivliyinin tərəfimizdən aparılmış yoxlanılması nəticəsində müəyyənləşdirilib.

## Gəldiyimiz nəticələr

Apardığımız yoxlamanın əhatə dairəsinə əsasən gəldiyimiz nəticələrin xülasəsi aşağıda verilmişdir.

1. Hesabat əsas məsələləri əhatə edirmi?

   Mətbuatda və ya Azərbaycanda BP-nin özünün əhəmiyyət dərəcəsinin qiymətləndirilməsi prosesinin nəticəsi kimi qaldırılmış və bu Hesabata daxil edilməmiş davamlı inkişafla əlaqədar Azərbaycanda BP-yə aid hər hansı bir əsas məsələ bizə məlum deyil.
2. Hesabatda Azərbaycanda BP-nin davamlı inkişaf üzrə icra göstəriciləri dəlil-sübut və ya izahatlarla təsdiqlənirmi?

Hesabatda BP rəhbərliyi tərəfindən Azərbaycanda BP-nin davamlı inkişaf üzrə həyata keçirdiyi fəaliyyətlərlə bağlı təqdim edilmiş təsdiq və məlumatlarda hər hansı bir qeyri-düzgün bəyanatın olması bizə məlum deyil.

## Müstəqilliyimiz

Beynəlxalq Mühasiblər Federasiyası Şurasının (İFAC) Peşəkar Mühasiblər üçün Etik Qaydalarında və İSQC12 standartına müəyyənləşdirilmiş müvafiq müstəqillik və peşəkar səriştə qaydalarına riayət etmək üçün tərəfimizdən bir sıra tədbirlər görülüb. "Ernst & Young" şirkətinin müstəqillik strategiyaları firmalar, tərəfdaşlar və peşəkar işçilərə tətbiq olunur. Bu strategiyalar sifarişçilərimizə münasibətdə müstəqilliyə xələl gətirən və ya gətirə biləcəyi ehtimal olunan hər hansı maliyyə maraqlarını qadağan edir. Hər il işçi və tərəfdaşlardan şirkətin siyasətlərinə riayət etdiklərini təsdiq etmək tələb olunur.

Biz hər il, qadağan edilmiş xidmətlər də daxil olmaqla, müstəqilliyimizə və obyektivliyimizə xələl gətirə biləcək hər hansı hadisənin baş verib-vermədiyini BP-yə bildiririk. 2015-ci ildə heç bir belə hadisə və ya xidmət olmamışdır. Bizim əminlik qrupumuz qlobal İqlim Dəyişikliyi və Davamlı İnkişaf Xidmətləri sahəsindən təşkil olunmuşdur, belə ki, onlar bunun kimi bir sıra mühüm BK və beynəlxalq biznes qurumları ilə əlaqədə olur.

Ernst & Young LLP, London

13 iyun 2016-cı il

Building a better working world

[1] Auditlər və ya Tarixi Maliyyə Məlumatları üzrə Yoxlamalar İstisna olmaqla Əminlik Öhdəlikləri üçün Beynəlxalq Mühasiblər Federasiyasının Beynəlxalq Standartı (İSAE3000 – düzəliş edilmiş).

[2] IESBA Qaydalarının A və B hissələri; və Keyfiyyətə Nəzarət üzrə Beynəlxalq Standart 1 (İSQC1)

# Əlavə məlumatlar



**Daha çox məlumatı onlayn əldə edin**
Bizim ikidilli *bp.com/xezer* veb-saytımız Xəzər regionunda müxtəlif enerji layihələrimiz barədə əsas məlumat mənbəyidir.

Ən son xəbərlər, layihələrin təfərrüatları, ətraf mühit və sosial sahəyə təsirin qiymətləndirilməsi, layihələri tənzimləyən hüquqi sazişlər, Azərbaycanda BP-nin davamlı inkişaf haqqında əvvəlki hesabatları və digər sənədləri nəzərdən keçirin.

**Sizin rəyiniz bizim üçün əhəmiyyətlidir**
Qeyd və təkliflərinizi onlayn göndərə bilərsiniz: *bp.com/xezer/elaqe*

Həmçinin +994 (0)12 599 3000 nömrəli telefonla zəng vura və ya bizə yaza bilərsiniz:

Şəffaflıq və ictimaiyyətə hesabatların verilməsi
BP AGT regionu,
BP Xəzər Mərkəzi,
14-cü mərtəbə,
Neftçilər prospekti, 153,
Bakı, AZ1010, Azərbaycan.

**İş üçün müraciət edin**
Veb-saytımızın Karyera bölməsinə baş çəkin: *bp.com/xezer/karyera*

Orada texniklərin işə götürülməsi proqramı, məzun və təcrübəçilərin işə götürülməsi proqramı və Azərbaycanda BP-nin təcrübəli peşəkarlar üçün iş elanları haqqında məlumat ala bilərsiniz.

Qeyd: Məzun və təcrübəçilərin işə götürülməsi kampaniyası adətən oktyabr ayında başlanır və bu barədə yerli mediada elan verilir.

**Problemli məsələləri qaldırın və məsləhət istəyin**
Məxfi "OpenTalk" xidməti günün 24 saatı, həftənin yeddi günü işləyir. Sizi narahat edən məsələ barədə istədiyiniz dildə, telefon, faks, məktub vasitəsilə məlumat verə və ya şikayətinizi onlayn göndərə bilərsiniz.

Onlayn forma: *opentalkweb.com*

Azərbaycan: +994 (0)12 599 3888

Beynəlxalq xətt: +1 704 540 2242

Faks: +1 704 556 0732

Məktub: BP OpenTalk, 13950 Ballantyne Corporate Place, PMB 3767, Charlotte, NC 28277, USA.

**Şikayət, sizi narahat edən məsələ və sorğularınızı göndərin**
Öz şikayətlərinizi, sizi narahat edən məsələləri və ya digər məlumatlarla bağlı sorğularınızı, zəhmət olmazsa, icmalarla əlaqə üzrə məsul şəxslərə çatdırın:

Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar
+994 (0)55 225 0251/225 0245
Ağdaş, Yevlax, Goranboy, Samux
+994 (0)55 225 0257/225 0254
Şəmkir, Tovuz, Ağstafa
+994 (0)55 250 5831/225 0260

İctimai informasiya mərkəzlərinin nömrələri:
Kürdəmir +994 (0)20 255 0594
Yevlax +994 (0)22 336 5884
Şəmkir +994 (0)22 305 4658

Təhlükəsizliklə əlaqədar bütün şikayət və narahatlıqlarla bağlı lütfən 114 nömrəsinə zəng edin.

**İcma proqramı qrantı üçün müraciət edin**
İcma proqramı qrantları ilə bağlı veb-saytımızda daha geniş məlumat alın: *www.bp.com/xezer*
Bizimlə aşağıdakı ünvanla da əlaqə saxlaya bilərsiniz: *cdi@bp.com*

**Minnətdarlıqlar**
Dizayn "Folga Plus MMC"
Çap "Max Offset" nəşriyyat evi

Foto-şəkillər Ələkbər Ağasıyev,
Şahin Abasəliyev,
Styuart Konvey,
Ramin Əzizli,
Çingiz Səmədzadə

**Kağız**
Bu hesabat yenidən emal olunmuş kağız üzərində çap olunub.
Bu kağıza müstəqil yoxlama tərəfindən Meşə işləri üzrə İdarəçilər Şurasının (FSC) qaydalarına uyğun şəhadətnamə verilib.

© BP p.l.c. 2016